

"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# Milli oyanışın zirvəsi




4


SƏS

№ 210 (6893)

17 noyabr 2023-cü il.
Qiymәti 60 qәpik


# Bir günlük səfər, yüz illik xidmət...

3




# Qərəzin iki üzü – ikisi də Qərb



9

## Dağıdıcı müxalifətin bolşevizm təfəkkürü



14

## Bakının qış hazırlığı: Bu mövsümdə istilik problemi olacaqmı?



12

## "Təhsildən yayınma küçə uşaqlarının sayının artımını qaçılmaz edəcək"



14

## Tarixi binalara ayrılan vəsait hara sovrulur?



## Həyata bir addım geridən başlayanlar



15











# "DOST EVİ": həssas təbəqələrə sosial dəstək

Dövlətin daxili siyasətinin prioritet istiqamətlərindən biri də onun sosial siyasətidir. Sosial siyasət əhalinin həyat keyfiyyətinin yüksəldilməsinə, sosial vəziyyətinin yaxşılaşdırılmasına yönəldilərək insanların layiqli həyat şəraitinin təmin edilməsinə, bu təminatın səviyyəsinin yüksəlməsinə töhfələr vermiş olur. Sağlamlıq imkanları məhdud olan, xüsusi qayğıya ehtiyac duyan uşaqların, əlilliyi olan şəxslərin sosial təminatı, çətin həyat şəraitində olan şəxslərin və ailələrin sosial xidmətlərə çıxışının təmin edilməsi, baxımsız uşaqların sosial adaptasiyası və s. ölkəmizdə uğurla həyata keçirilən sosial müdafiə siyasətinin prioritet istiqamətlərini təşkil edir. Bu və ya digər şəxslərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində çoxsaylı tədbirlər həyata keçirilir. Bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən sosial siyasətin nəticəsi olaraq həssas təbəqənin sosial məsələlərinin həllinə daim xüsusi diqqət yetirilir. Bu istiqamətdə dövlət səviyyəsində icra olunan layihələrlə yanaşı, Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın təşəbbüsləri də xüsusi əhəmiyyəti ilə seçilir. Bu baxımdan DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasını vurğulamaq lazımdır. Birinci vitse-prezident Mehriban Əliyevanın təşəbbüsü ilə yaradılan Mərkəzin əsas məqsədi şəhid ailələrinin üzvləri, əlilliyi olan şəxslər, valideynini itirmiş uşaqlar, aztəminatlı ailələrin övladları sırasından istedadlı şəxslərin yaradıcılıq potensialının inkişaf etdirilməsidir. Xatırladaq ki, DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin yaradılmasında məqsəd şəhid ailəsi üzvlərinin, müharibə ilə əlaqədar əlilliyi müəyyən edilmiş şəxslər və onların uşaqları, valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqlar, aztəminatlı ailələrin və əlilliyi olan şəxslər sırasından istedadlı şəxslərin Mərkəzdə müvafiq istiqamətdə bacarıq və yaradıcılıq potensialının inkişaf etdirilməsidir.

### HƏSSAS QRUPLARDAN OLAN ŞƏXSLƏRƏ SOSİAL DƏSTƏK

Ölkəmizdə sosial cəhətdən həssas qruplardan olan şəxslərin hüquqlarının müdafiəsi, onların tələbatlarının ödənilməsi, həyat şəraitinin yaxşılaşdırılması istiqamətində görülən sosial dəstək tədbirləri təqdirəlayiqdir. Son illər xüsusi kateqoriyadan olan vətəndaşlara göstərilən xidmətlərin əhatəsi genişlənmişdir.

Bildiyimiz kimi, noyabrın 15-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva İsmayıllıda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin "DOST EVİ" filialının açılışında iştirak ediblər.

Mərkəzin fəaliyyət istiqamətləri əsasən musiqi, təsviri incəsənət, rəqs, dulusçuluq, xalçaçılıq, toxuma, floristika, landşaft dizaynı və bağçılıq, bədii oyma, kulinariya, fotoqrafiya və s. ibarətdir. Fəaliyyət dövrü ərzində 470 benefisiar Mərkəzdə müxtəlif yaradıcılıq istiqamətləri üzrə təlim, sosial pedaqoji və psixoloji xidmətlərdən yararlanıb. Hazırda Mərkəzdə 186 nəfərə xidmət göstərilir. Onlardan 131 nəfər əlilliyi olan şəxs, 21 nəfər valideynini itirmiş uşaq, 22 nəfər aztəminatlı ailələrin üzvləri, 12 nəfər isə şəhid ailəsi üzvüdür.

İsmayıllıdakı "DOST EVİ" də həmin Mərkəzin filialı kimi fəaliyyət göstərəcək. Müəssisə modern və konstruktiv elementlərlə, milli ornamentlər də əlavə olunmaqla müasir üslubda layihələndirilib, mühəndis sistemləri ən yüksək tələblərə cavab verir.

Filialda 10 istiqamət üzrə 6 emalatxana - dulusçuluq, bədii oyma, misgərlik və zərgərlik, dərzilik və kəlağayı, xalçaçılıq, toxuma və bədii tikmə, un məmulatları emalatxanaları fəaliyyət göstərəcək.

Sərgi və Satış Mərkəzində benefisiarların hazırladıqları əl işlərinin nümayişi, həmçinin satışı həyata keçiriləcək. "DOST EVİ"ndə DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzinin benefisiarları tərəfindən dulusçuluq, bədii oyma, xalçaçılıq, toxuma və tikmə, dərzilik, təsviri incəsənət, floristika, bağçılıq və landşaft dizaynı istiqamətləri üzrə hazırlanmış əl işlərindən ibarət sərgi təşkil olunub. Sərgidə 150-dək əl işi təqdim edilir. Bölgədə yaşayan və "DOST EVİ"nə cəlb edilmiş əlilliyi olan şəxslər və digər həssas qrupların hazırladıqları sənətkarlıq nümunələrinin də burada nümayişi və satışı həyata keçiriləcək.

"DOST EVİ" bölgədə müvafiq peşə hazırlığı kursları üçün təlim bazası rolu oynamaqla yanaşı, özünüməşğulluq layihələrinin icrasına da dəstək olacaq. Burada 50 nəfərin məşğulluğu təmin ediləcək. Benefisiarlar, təlimçilər və digər işçilər əlilliyi olan şəxslər və digər həssas qruplar arasından seçiləcək. Filialda 50-80 nəfər benefisiar üçün 6 ay – 2 il müddətində təlimlər-kurslar təşkil olunacaq və sonda onlara sertifikatlar veriləcək. Əlilliyi olan şəxslər inklüziv kafe sahəsində işə cəlb edilərək ictimai iaşə xidmətləri təşkil olunacaq. Burada qonaqlara ekoloji təmiz məhsullardan hazırlanan və milli kulinariya nümunələri olan keyfiyyətli qidalar, un məmulatları təqdim ediləcək. Filialın bio-market sahəsində ekoloji təmiz kənd təsərrüfatı məhsulları satılacaq.

"DOST EVİ" bölgədə yeni iş yerlərinin, o cümlədən əlilliyi olanlar, həmçinin digər həssas qrupların məşğulluq və gəlir imkanlarının artırılmasına, milli sənətkarlığın inkişafına və təbliğinə, bölgədə turizm imkanlarının genişləndirilməsinə, ekoloji təmiz məhsulların satışına, keyfiyyətli iaşə xidmətlərinin göstərilməsinə dəstək verəcək.

### REALLAŞDIRILAN SOSİAL ƏDALƏT PRİNSİPİ

Göründüyü kimi, cəmiyyətin tərəqqisinin əsas məqsədləri sırasında yer alan sosial rifah və onun daim yüksələn xətt üzrə inkişafına nail olunması diqqətdə saxlanılır. Sosial rifah halının, insanların həyat səviyyəsinin yüksək olmadığı cəmiyyətdə və dövlətdə böyük nailiyyətlərlə müşayiət edilən inkişafdan söhbət açmaq mümkün deyil. Sosial siyasət insanların həyatının bütün sahələrini - əmək və məişət şəraitinin yaxşılaşdırılmasını, sosial ədalət prinsipinin reallaşdırılmasını, əhalinin etibarlı sosial müdafiəsinə nail olunmasını, məşğulluq probleminin həllini, maddi və mənəvi tələblərin təminatını və digər bu qəbildən olan halları əhatə edir. Cəmiyyətin ümumi inkişaf prosesinə uyğun olaraq, bu kateqoriyadan olan şəxslərin sosial təminatını daha da yaxşılaşdıran, habelə ayrı-ayrı sosial məsələlərin həllinə imkanlar yaradan qanunlar qəbul edilir, eyni zamanda, onların maddi təminatını gücləndirmək məqsədilə yeni təqaüd və müavinətlər təsis edilir, pensiyaların və digər sosial ödənişlərin məbləği mütəmadi artırılır. Azərbaycanda əlil hüquqlarının qorunması, onların sağlamlıqlarının bərpası, sosial rifahının yaxşılaşdırılması, mənzillə təminatı, peşə ixtisasına yiyələnməsi, bir sözlə, tam hüquqlu üzv kimi cəmiyyətə inteqrasiya olunması üçün tədbirlər görülür. Həmin sahələrin hər biri üzrə lazımlı addımlar atılır.

Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında 44 günlük müharibədə qazandığımız Zəfər xalqımızın minlərlə qəhrəman övladının, vətənpərvər gənclərimizin igidliyi və rəşadəti sayəsində tariximizə yazılmış şanlı salnamədir. Ölkəmizin ərazi bütövlüyü, torpaqlarımızın işğaldan azad edilməsi uğrunda şücaət göstərən qazilərə, bu yolda canını fəda edən qəhrəmanlarımıza, şəhid ailələrinə dövlətimiz tərəfindən sosial qayğıların həll edilməsi üçün ardıcıl olaraq zəruri tədbirlər görülür. Onlar üçün qanunvericilikdə nəzərdə tutulmuş imtiyaz və müavinətlərin icrası təmin olunur. Bir sözlə, dövlətin bu təbəqəyə göstərdiyi qayğı göz önündədir.

***Zümrüd BAYRAMOVA***

# Bir günlük səfər, yüz illik xidmət...




*PREZİDENT İLHAM ƏLİYEV: «Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!»*






Prezident İlham Əliyevin işğaldan azad olunmuş rayonlara səfərləri və ən əsası, bu səfərlər zamanı həmin ərazilərdə aparılan quruculuq işləri çərçivəsində inşa edilən yeni strateji obyekt və müəssisələrin təməlinin dövlətimizin başçısı tərəfindən qoyulması həm siyasi, həm iqtisadi, həm mənəvi cəhətdən müstəsna əhəmiyyət kəsb etməklə yanaşı, dünyaya bir mesajdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşaya etdiyi səfəri və bu səfər çərçivəsində təməlqoyma mərasimlərində iştirak etdiyi layihələr dağıdılmış şəhərlərimizin, kəndlərimizin qısa müddət ərzində yenidən qurulacağına, insanların öz doğma el-obasına qayıdacağına, işğal altında olmuş ərazilərimizdə həyatın yenidən canlanacağına olan inamı daha da möhkəmləndirib. Qələbəmizdən üç il keçməsinə baxmayaraq Şuşa dirçəlir, inkişaf edir, gözəlləşir. Çünki Şuşa Azərbaycan üçün adi şəhər deyil, milli qürur, milli mənlik, mədəniyyət, incəsənət, tarix deməkdir. Ulu öndər Heydər Əliyevin dediyi kimi, "Şuşa təkcə şuşalılar üçün yox, bütün azərbaycanlılar üçün, Vətənini, millətini sevən hər bir vətəndaşımız üçün əziz bir şəhərdir, əziz bir torpaqdır, əziz bir qaladır, əziz bir abidədir".

Bəli, məhz Şuşa Zəfərimizin tacı olduğu üçün Prezident İlham Əliyev mayın 8-də ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan xalqına təbrik müraciətini Şuşadan edib: "Mən bu təbrik müraciətimi Bakıdan da edə bilərdim. Amma hesab etdim ki, mən bu gün burada olmalıyam, Şuşada olmalıyam, bu binanın önündə olmalıyam".

"Şuşa Zəfərimizin rəmzidir, Şuşa Zəfərimizin tacıdır. Şuşa işğaldan azad olunanda, bax, bu meydanda qəhrəman Azərbaycan hərbçiləri mənə Şuşanın azad olunması ilə bağlı raport vermişlər. Bu binanın damında Azərbaycan Bayrağı qaldırılmışdır və Şuşanın azad olunması bizim tarixi Zəfərimizin əsas hissəsi idi... Ondan bir gün sonra Ermənistan kapitulyasiya aktına imza atmışdır", - deyə Azərbaycan Prezidenti bildirib.

### ULU ÖNDƏR HEYDƏR ƏLİYEVİN ƏN BÖYÜK ARZUSU ŞUŞANI, QARABAĞI VƏ ZƏNGƏZURU AZAD GÖRMƏK İDİ

"Ulu öndər Heydər Əliyevin ən böyük arzusu Şuşanı, Qarabağı və Zəngəzuru azad görmək idi. Biz onun və bütün Azərbaycan xalqının, bütün dünya azərbaycanlılarının arzusunu çin etdik",- deyən Qalib Lider Prezident İlham Əliyev onu da bildirdi ki, il başlayandan Ulu Öndərin həyatı, fəaliyyəti ilə bağlı bir çox tədbirlər keçirilir, müzakirələr aparılır: "Eyni zamanda, hesab edirik ki, biz bu yubiley tədbirlərindən gələcəyə baxışı daha da dəqiqləşdirmək üçün istifadə etməliyik. Mən mayın 2-dən bu günə qədər Qarabağ və Şərqi Zəngəzurdayam, bir çox tədbirlər keçirilmişdir, 10 kəndin təməli qoyulmuşdur, bir çox açılışlar həyata keçirilmişdir. On günə yaxın Qarabağ və Şərqi Zəngəzurda olarkən bir daha əyani şəkildə görürəm ki, Qarabağ və Şərqi Zəngəzur dirçəlir, yollar, körpülər, tunellər, elektrik stansiyaları, su anbarları, məktəblər, xəstəxanalar, yaşayış binaları, məscidlər inşa edilir, yenidən qurulur və ya təmir olunur, elektrik xətləri çəkilir. Bütün bu quruculuq işlərinin təməlində Azərbaycan xalqının maraqları dayanır".

Böyük qələbəni al qanı ilə yazan şəhidlərimizin intiqamının alınması ilə əldə edilən zəfəri, qalibiyyəti Azərbaycan xalqına bəxş etməklə Ali Baş Komandanımız İlham Əliyev həm də həyatını Azərbaycana həsr edən, "Şuşasız Qarabağ, Qarabağsız Azərbaycan yoxdur" - deyən Ulu Öndərin arzusunu reallaşdırdı.

Prezident İlham Əliyev Şuşadan xalqa müraciətində də bildirdi: "2003-cü ildə prezident seçkiləri ərəfəsində xalqa müraciət edərək demişdim ki, əgər mənə etimad göstərilərsə, mən Heydər Əliyev siyasətinə sadiq qalacağam. Azərbaycan xalqı mənə inandı və mən də sözümdə durmuşam və duracağam. 2003-cü ildən bu günə qədər 20 il keçib. Bu 20 il sürətli inkişaf və tərəqqi illəri olmuşdur. Uzun illər bundan sonra da Azərbaycan yalnız və yalnız inkişaf edəcək. Bizim uzunmüddətli strategiyamız çox aydındır və daxili resurslara hesablanıb. Azərbaycan Ulu Öndərin yolu ilə gedərək öz dövlət müstəqilliyini daha da möhkəmləndirib. Bu gün, sözün əsl mənasında, müstəqil xarici və daxili siyasət apara bilən ölkələrin sayı dünyada çox məhduddur. Azərbaycan o ölkələrdəndir ki, heç bir kənar qüvvə bizim irадəmizə təsir edə bilməz. Çünki güclü iradəmiz var, güclü ordumuz var və eyni zamanda, güclü imkanlarımız var. Maliyyə resurslarımız, maddi vəziyyətimiz imkan verir ki, biz ancaq öz daxili resurslarımız hesabına yaşayaq və yaşayırıq, daxili resurslar hesabına Qarabağı yenidən qururuq, Zəngəzuru yenidən qururuq".

Bəli...








### BİR GÜNLÜK SƏFƏR ZAMANI YENİ UĞURLARIN TƏMƏLİNİN QOYULMASI VƏ XİDMƏTİ KİMİ DƏYƏRLƏNDİRİLMƏLİDİR

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşaya etdikləri səfər zamanı 23 binadan ibarət yaşayış kompleksində aparılan tikinti işləri ilə tanış olublar. Bildirilib ki, yaşayış kompleksində ümumilikdə 450 mənzil istifadəyə veriləcək. Burada 28 birotaqlı, 195 ikiotaqlı, 190 üçotaqlı, 30 dördotaqlı və 7 beşotaqlı mənzil olacaq. Keçmiş məcburi köçkünlərin bu binalara köçürülməsinə 2024-cü ilin birinci rübündə başlanılacaq.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Şuşa şəhərində "Qızlar gimnaziyası" tarixi abidə binasında həyata keçiriləcək işlərlə tanış olublar. Həmçinin, Şuşa şəhərində Qala divarına və ətraf əraziyə baxış keçiriblər. Eyni zamanda, Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Heydər Əliyev Fondu tərəfindən Şuşada Pənahəli xan küçəsində yerləşən bir sıra binalarda həyata keçiriləcək bərpa və yenidənqurma layihələri və Mamayı məscidində aparılan bərpa işləri ilə tanış olublar, Şuşada "Yasəmən" otelinin, Şuşa şəhəri 1 nömrəli tam orta məktəbin açılışında iştirak ediblər.Həmçinin, Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 7-də Şuşada İsa bulağında olublar.

Bir sözlə, bir günlük səfər zamanı görülən işlər Qalib Lider, Prezident İlham Əliyevin yüz illik xidmətinin təsdiqi, «Qarabağda cənnət yaradacağıq» sözü ilə əməlin bir olmasının göstəricisidir.

Beləliklə, bütün bu deyilənlərə əsaslanaraq bir daha əminliklə söyləmək olar ki, az bir zamanda Qarabağ və bütün işğaldan azad olunmuş ərazilər dirçələcək, bərpa olunacaq, vətəndaşlarımız öz doğma yurd-yuvalarına qayıdıb, yaşayıb-yaradacaqlar. Ancaq mənfur düşmən unutmamalıdır, necə ki, Azərbaycan Prezidenti cənab İlham Əliyev illərlə işğal siyasətinə son qoymaq üçün qətiyyət, iradə və prinsipiallıq nümayiş etdirdisə, indi də atdığı düşünülmüş və sistematik addımları Qarabağı qısa zaman kəsiyində dirçəldəcək, ərazilərimiz minalardan təmizləniləcək və insanlar öz el-obalarına geri dönəcəklər. Artıq insanlar öz el-obalarına geri dönməkdədilər. Çünki Qarabağ Azərbaycanındır! Qarabağ Azərbaycandır! Qarabağ cənnət məkanıdır!

**RƏFİQƏ KAMALQIZI**

## Yaşar Gülər: “Bundan sonra da “Bir millət, iki dövlət” anlayışı ilə Azərbaycanın yanında olacağıq”

“Azərbaycan ilə Ermənistan arasında daimi sülhün bərqərar olması üçün yeni fürsət qapısı açılıb. Ermənistanın bunu anlayaraq şüurlu şəkildə hərəkət edəcəyinə ümidvarıq. İndiyə qədər etdiyimiz kimi, bundan sonra da “Bir millət, iki dövlət” anlayışı ilə Azərbaycanın yanında olacağıq.”



Bu fikirləri Türkiyənin milli müdafiə naziri Yaşar Gülər Türkiyə Böyük Millət Məclisində çıxışı zamanı bildirib. Türkiyədə aparılan antiterror əməliyyatlarına toxunan nazir bu ilin əvvəlindən ümumilikdə 1868 terrorçunun zərərsizləşdirildiyini bildirib. Nazir qeyd edib ki, 2015-ci il iyulun 24-dən indiyədək ölkə daxilində, İraq və Suriyanın şimalında keçirilən əməliyyatlarda ümumilikdə 39 min 211 terrorçu zərərsizləşdirilib. Y.Gülər 2016-cı il iyulun 15-də ölkədə baş verən dövlət çevrilişinə cəhddən indiyədək FETÖ terror təşkilatı ilə əlaqəsi olduğu müəyyənləşdirilən 23 min 971 nəfərin Türkiyə Silahlı Qüvvələrindən xaric edildiyini vurğulayıb.

## YAP nümayəndəsi Mərkəzçi Demokrat İnternasionalının Brüsseldə keçirilən tədbirlərində iştirak edib

Yeni Azərbaycan Partiyası İdarə Heyətinin üzvü, Milli Məclisin deputatı Ramin Məmmədov Mərkəzçi Demokrat İnternasionalı (IDC-CDI) İcra Komitəsinin Brüsseldə keçirilən növbəti iclasında və digər tədbirlərində iştirak etmək məqsədilə 2023-cü il 13-15 noyabr tarixlərində Belçika Krallığında səfərdə olub.



Noyabrın 14-də keçirilən IDC-CDI İcra Komitəsinin iclasında qurumun prezidenti Andres Pastrana, baş katibi Antonio Lopez-İzturiz və digər rəsmilərin hesabat xarakterli və təşkilati məsələlərə dair çıxışları dinlənilib, gələcək fəaliyyət planı müzakirə olunub. İclas zamanı “Mövcud genişlənmə imkanları və Avropa qonşuluğunun üzləşdiyi əsas çağırışlar” mövzusunda Avropa İttifaqının Qonşuluq siyasəti və genişlənmə üzrə komissarı Oliver Varhelyi, Ukrayna münaqişəsi və onun Avropa layihəsinin gələcəyinə təsiri” mövzusunda isə Ukraynanın sabiq baş naziri, Ali Radanın üzvü və Batkivşina partiyasının rəhbəri Yuliya Timoşenko məruzə ilə çıxış ediblər.

Həmin gün qurumun Dəyərlər və Sülh üzrə İşçi Qrupunun iclası, “Hamı üçün rəqəmsal bacarıqlar: innovativ texnologiyalar Avropanın işçi qüvvəsini necə gücləndirə bilər” mövzusunda konfrans, və “Avropanın qapısında çoxsaylı müharibə böhranları – beynəlxalq nizam üçün növbəti nədir” mövzusunda nahar debatı da keçirilib. Nahar debatı zamanı IDC-CDI-ın vitse-prezidenti, Avropa Parlamentinin Almaniyadan olan keçmiş üzvü Elmar Brok Rusiya-Ukrayna müharibəsi və İsrailin Qəzzadakı hərbi əməliyyatları ilə yanaşı, Azərbaycanın Qarabağ bölgəsindəsində son illərdə gedən prosesləri də Avropanı təhdid edən hadisələr sırasında göstərməyə çalışıb. Buna cavab olaraq YAP İdarə Heyətinin üzvü Ramin Məmmədov çıxışında Almaniya da daxil olmaqla bütün beynəlxalq ictimaiyyətin Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və istər 2020-ci ildə 44 günlük İkinci Qarabağ müharibəsi dövründə, istərsə də bu ilin sentyabrında bir günlük antiterror tədbirləri zamanı Azərbaycanın bütün hərbi əməliyyatları özünün beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həyata keçirdiyini vurğulayıb. O, sözügedən əməliyyatların beynəlxalq hüququn prinsiplərinə, BMT Nizamnaməsinə uyğun olduğunu və BMT Təhlükəsizlik Şurasının müvafiq qətnamələrinin həyata keçirilməsi, Azərbaycanın ərazilərini işğaldan azad etməsi və öz sərhədləri çərçivəsində suverenliyini tam təmin etməsi ilə nəticələndiyini bildirib. YAP nümayəndəsi bütün bunları əsas gətirərək, Azərbaycan-Ermənistan münasibətlərini bu məsələdə nümunə kimi göstərməməyə çağırış edib. Bundan sonra müzakirələrin gedişatında yalnız Rusiya-Ukrayna və İsrail-Fələstin münaqişələri barədə fikir mübadiləsi aparılıb.

Noyabrın 15-də Antverpen şəhəri və Plantin-Moretus Muzeyi ilə tanışlıqdan sonra səfər başa çatıb.

# Milli oyanışın zirvəsi




Ermənistanın Azərbaycana qarşı ərazi iddiası irəli sürməsi, Dağlıq Qarabağda yaşayan ermənilərin separatçılıq hərəkatı, yüz minlərlə azərbaycanlının tarixi torpaqlarından uzaqlaşdırılması ”Meydan hərəkatı”nın əsasını qoydu. Artıq 70 il hökm sürmüş imperiyanın əsl mahiyyəti hər kəsə aydın idi. Onun buxovlarından xilas olmaq məqamı yetişmişdi. 1988-ci ilin noyabrın 17-də 70 il sovet ittifaqının tərkibində yaşayan xalq bu imperiyaya qarşı etiraz olaraq haqq səsini, azadlıq səsini ucaldıb ayağa qalxdı. Milyonlarla insanın meydana yol alması artıq ölkəmizin həyatında dönüş nöqtəsi idi. Ermənilərin Qarabağda azərbaycanlılara qarşı haqsız ərazi iddialarına başlaması, Topxanada törətdikləri vəhşiliklər, Ağdamda isə iki azərbaycanlını qətlə yetirmələri xalqımızın haqsızlıqlara qarşı barışmaz mövqeyini, iradəsini ortaya qoymuş oldu. Məlumdur ki, 1988-ci ilin ilk günlərində Ermənistanın Azərbaycana qarşı açıq təcavüzü başlanmışdı. Ermənistan hökumətinin tapşırığı və göstərişi ilə Ermənistanda yaşayan 200 mindən çox azərbaycanlının öz ata-baba yurdlarından kütləvi surətdə qovulması, artıq vəziyyətin olduqca gərgin olmasının göstəricisi idi. Öz tarixi torpaqlarından, ev-eşiklərindən qovulan azərbaycanlılar ermənilərin iyrənc, tüküpədən əməlləri ilə də üz-üzə idilər. Onlara verilən cismani cəza, insanların diri-diri yandırılması erməni vəhşiliyinin nə dərəcədə olduğunu göstərirdi. Əslində, bu əməlləri törədənlər vəhşilər idi. Çox təəssüf ki, ermənilərin tarixdə görünməmiş bu vandalizminə, təcavüzünə o vaxtkı keçmiş SSRİ rəhbərliyi də reaksiya vermirdi. 1988-ci ilin fevralın əvvəllərində Qarabağda ixtişaşlar törətdilər. Azərbaycanın tarixi torpağı olan Qarabağı Azərbaycandan qoparıb Ermənistana birləşdirməsi haqqında məsələ qaldırdılar. Azərbaycan xalqı etirazını rəhbərliyə çatdırsa da nə Moskva, nə də Azərbaycanın o vaxtkı rəhbərliyi tərəfindən tədbir görülmədi. Əlbəttə ki, artıq xalqın haqq səsinin ucaldılması zərurəti yaranmışdır. Milyonlarla insanın toplaşdığı ”Azadlıq meydanı” bir məslək yolunda olan insanların toplandığı məkan idi. Milyonlarla insanının həmrəyliyi, bir məqsəd uğrunda birləşməsi xalqın böyüklüyünü, eləcə də onun müstəqillik yolunda mücadilə etmək bacarığını ortaya qoydu. Ötən əsrin əvvəllərində azadlığı, mütəqilliyi yaşayan Azərbaycan xalqı bir əsrdə ikinci dəfə bu yolda mücadiləyə qalxdı. Çətin bir yol olsa da, müstəqilliyin böyük nemət olması insanları heç nədən çəkindirmədi. ”Azadlıq”, ”Qarabağ bizimdir” kimi şüarlarla keçirilən mitinqlər Bakını, eləcə də respublikamızın şəhər və rayonlarını bürüdü. Bu, artıq böyük bir oyanış idi. Xalqın müstəqilliyi yolunda oyanışı.

### MİLLİ DİRÇƏLİŞ YOLU MİLLİ BİRLİK VƏ MİLLİ HƏMRƏYLİKDƏN KEÇİR

17 günlük ”Meydan hərəkatı” Azərbaycanın müstəqilliyinin bərpasında mühüm mərhələ kimi tarixə həkk olunub. 17 noyabr Azərbaycanın tarixi salnaməsində azadlıq hərəkatı, diçəliş günü olaraq yer alıb. Hər il Azərbaycanda 17 Noyabr Milli Dirçəliş gününün qeyd edilməsi məhz tarixi reallıqlara söykənir. Milli Dirçəliş yolu milli birlik və milli həmrəylikdən keçir. 17 noyabr hadisəsi sübut etdi ki, Azərbaycan xalqının məqsədi, məramı azadlıq, müstəqillikdir və bu yolda canlar fəda edilsə də, xalq iradəsini qırmaq qeyri-mümkündür.

1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının Ali Sovetinin yeni tərkibdə ilk sessiyası keçirildi və Muxtar Respublikanın adından ”sovet” və ”sosialist” sözləri çıxarıldı. Əlbəttə ki, o zaman hələ Azərbaycan imperiyanın tarix səhnəsindən silinməmişdi və Naxçıvanın adından qeyd olunan sözlərin çıxarılması müstəqilliyimizin qazanılması yolunda çox böyük tarixi addım idi. Bu. Ümummilli Lider Heydər Əliyev milli dövlətçiliyimizin dirçəlişi istiqamətində ilk böyük tarixi addım idi. Ulu Öndər Heydər Əliyevin sədrliyi ilə keçirilən həmin tarixi sessiyada Muxtar Respublikanın dövlət rəmzləri haqqında məsələ də müzakirə olunub. Müzakirədən sonra üçrəngli bayrağın dövlət rəmzi kimi qəbulu ilə əlaqədar təklif irəli sürülüb. Azərbaycan Xalq Cümhuriyyətinin üç rəngli bayrağının bərpa olunması barədə qərar çıxaran sessiya onun dövlət bayrağı kimi qəbul edilməsi ilə əlaqədar Azərbaycanın Ali Soveti qarşısında vəsatət qaldırıb. Beləliklə, milli dirçəlişdən milli tərəqqiyə doğru uzanan tarixi yolun başlanğıcı qoyuldu.

### AZƏRBAYCANI DİRÇƏLİŞDƏN ZƏFƏRƏ APARAN TARİXİ YOL

Ulu Öndər Heydər Əliyevin 1993-cü ilin iyun ayının 15-də yenidən Azərbaycana rəhbərliyə qayıdışı Azərbaycan həyatında dönüş nöqtəsi oldu. Azərbaycanda inkişafın yeni mərhələsi başlandı. XX əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələr nəticəsində, ölkəmizdə bütün sahələrdə yaşanılan tənəzzül ölkəni böhran vəziyyətə salmışdır. Dahi Şəxsiyyət Heydər Əliyevin siyasi kursu sayəsində, Azərbaycan özünün müstəqilliyinin sütunlarını möhkəmlətdi, onun dünyaya inteqrasiya olunmasına töhfələrini verdi. Ulu Öndər Heydər Əliyev Şəxsiyyət, Siyasi Xadim, xalqın dayağı, onun hərəkətverici qüvvəsi olaraq, Azərbaycan tarixində əsrin Lideri olduğunu təsdiqlədi. Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə ölkəmizdə böyük sıçrayış baş verdi. Həmin tarixə qədər son illərdə baş verən hadisələr, xalqı, bütövlükdə, uçuruma sürükləyən məqamlar - istər ölkə daxilində, istərsə də xaricində onun sütunlarını zəiflətməyə başlamışdı. Belə bir zamanda, xalqın təkidi və istəyi ilə hakimiyyətə gələn, Qayıdışı ilə böyük nailiyyətləri Azərbaycan salnaməsinə daxil edən Ulu Öndər Heydər Əliyev Ona etimad göstərənlərin ümidini doğrultdu. Ölkəmizdə iqtisadi sabitliyin təmin edilməsi, tənəzzülə uğramasının qarşısının alınması və yeni dövrün tələblərinə uyğun şəkildə islahatların həyata keçirilməsi önəmli idi ki, Ulu Öndər Heydər Əliyev də müdrikcəsinə dövrün irəli sürdüyü bu tələbləri müstəqil Azərbaycan dövlətində ardıcıl şəkildə həyata keçirdi və ölkəmizdə yeni iqtisadi mühit, azad bazar iqtisadiyyatı formalaşdı. Sonrakı dövrlərdə Azərbaycan vətəndaşlarının sosial durumunun yaxşılaşdırılması ilə bərabər, dövlət quruculuğu siyasətinin ardıcıl surətdə həyata keçirilməsi, Azərbaycan dövlətinin beynəlxalq nüfuzunun artırılması istiqamətində addımlar atıldı.

Bugünkü mövcud vəziyyət, iqtisadi inkişaf, siyasi sabitlik, eləcə də, beynəlxalq aləmdə ölkəmizə inamın və marağın artması, məhz Ulu Öndər Heydər Əliyevin siyasətinin təntənəsidir. Müstəqil Azərbaycanın bütün sahələrdə qazandığı möhtəşəm nailiyyətlər Ulu Öndər Heydər Əliyev ideyalarının təntənəsi və milli tariximizin şanlı səhifələridir. Ulu Öndər Heydər Əliyevin xalqımız qarşısındakı xidmətlərindən danışarkən Ümummilli Liderin Azərbaycan Ordusunun qurucusu və yaradıcısı olması faktını da qeyd etməliyik. Qısa müddət ərzində müstəqilliyimizin təminatçısına çevrilən, vahid komandanlığa tabe olan güclü və qüdrətli ordu yaradıldı. Ordumuz hərb elminin prinsipləri əsasında yaradıldı, dövlət səviyyəsində hərtərəfli qayğı ilə əhatə olundu, müasir dünya ölkələrinin təcrübəsi əsasında formalaşma yolu keçməyə başladı.

Ulu Öndər Heydər Əliyevin siyasətini uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyevin dərin məzmunlu və çoxşaxəli siyasi kursu ilə müstəqilliyimiz daha da möhkəmlənib. Ən əsası da odur ki, indi Azərbaycan tarixinin ən qüdrətli dövrünü yaşayır. Dünyada söz sahibi olan Azərbaycan Cənubi Qafqazın lideri statusunu daşıyır. Tam müstəqil siyasət yürütməsi də respublikamızın beynəlxalq imicinə müsbət təsir edən əsas amillərdəndir. Sevindirici haldır ki, bu gün Azərbaycan Zəfər çalmış bir xalq, dövlət olaraq da dünyada tanınır. 30 ilə yaxın düşmən tapdağı altında olan torpaqlarımızın işğaldan azad edilməsi və Vətən müharibəsindəki Qələbə Azərbaycanın beynəlxalq nüfuzunu daha da yüksəldib. Bu qələbə Cənab Prezident İlham Əliyevin qətiyyəti, xalqımızın inamı və şəhidlərimizin qanı bahasına əldə olundu. Ali Baş Komandanımızın rəhbərliyi ilə ordumuz Ermənistana böyük zərbə vurdu və əzəli torpaqlarımız işğaldan azad olundu. Ulu Öndərin məhvolma təhlükəsindən xilas edib inkişaf yoluna çıxardığı Azərbaycan dövləti sözün əsl mənasında, daha da möhkəmlənib.

Bəli, 17 noyabr tarixi bir daha göstərdi ki, azad düşüncəli xalqı müstəmləkə altında saxlamaq olmaz. Bu gün Azərbaycan xalqın milli oyanışının zirvəsi oldu. Həmin tarixdən Azərbaycan böyük inkişaf yolu keçdi, iqtisadi gücü yüksəldi, dünyada söz sahibinə çevrildi. Məhz bu güc Azərbaycanı dirçəlişdən Zəfərə doğru apardı. 30 ilə yaxın mənfur düşmən tapdağı altında olan torpaqlarımız azad edildi, xalqımız Zəfər tarixini yaşadı. Bu Zəfər Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsinin, xalq-iqtidar birliyinin təntənəsidir. XXI əsrin müharibəsini aparan Azərbaycan tarixinə Zəfər gününü yazdı.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ulu Öndərin həyat və fəaliyyəti hər bir gənc üçün nümunədir





## YAP Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib

***Salyan rayonunda "Heydər Əliyev İli" çərçivəsində noyabrın 16-da Yeni Azərbaycan Partiyası (YAP) Veteranlar Şurasının üzvlərinin gənclərlə növbəti görüşü keçirilib. Tədbirdə partiyanın Şirvan şəhər, Salyan, Hacıqabul, Neftçala və Biləsuvar rayon təşkilatlarının üzvü olan fəal gənclər iştirak ediblər.***



Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri düzülüb, əziz xatirəsi ehtiramla yad olunub. Sonra Heydər Əliyev Mərkəzində təşkil olunmuş rəsm və əl işlərindən ibarət sərgiyə baxış keçirilib, rayonun incəsənət ustalarının ifasında musiqi nömrələri dinlənilib. Salyan rayon İcra Hakimiyyətinin akt zalında baş tutan tədbirdə əvvəlcə Dövlət Himni səsləndirilib. Sonra Ulu Öndər Heydər Əliyevin və torpaqlarımızın işğaldan azad edilməsi uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Tədbiri giriş sözü ilə açan YAP Salyan rayon təşkilatının sədri Elmar Əhmədov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev İli" elan olunması ilə əlaqədar Yeni Azərbaycan Partiyasının silsilə tədbirlər keçirdiyini bildirib. Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı qarşısında misilsiz xidmətlər göstərdiyini deyən E.Əhmədov vurğulayıb ki, gənclərlə görüşün keçirilməsində məqsəd dahi şəxsiyyətin əbədiyaşar ideyalarının yeni nəslə təşviq edilməsidir. Çünki Azərbaycanın müasir tarixi, ölkəmizin inkişafı bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Onun sözlərinə görə, Ulu Öndər hakimiyyətdə olduğu bütün dövrlərdə respublikamız və xalqımız üçün müstəsna xidmətlər göstərib, həmin dövrlərdə bütün sahələr inkişaf edib.

Salyan Rayon İcra Hakimiyyətinin başçısı Sevindik Hətəmov çıxış edərək Azərbaycanda dövlət gənclər siyasətinin həyata keçirilməsindən danışıb. Bildirib ki, həyatımızın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib. Onlar ölkə rəhbərliyinin siyasi, iqtisadi, humanitar sahələr üzrə həyata keçirdiyi tədbirlərə hər zaman dəstək verir, cəmiyyətdə sabitliyin və inkişafın təmin olunmasında yaxından iştirak edirlər. Vurğulayıb ki, gənclərimiz ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edir, Azərbaycanla bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılmasında, mədəni-mənəvi irsimizin təbliğ olunmasında fəallıq nümayiş etdirirlər. Qeyd edib ki, tarixi Zəfər digər amillərlə bərabər, həm də Azərbaycanda düzgün gənclər siyasəti aparılmasının iftixar doğuran nəticəsidir.

YAP Veteranlar Şurasının sədri, partiyanın İdarə Heyətinin üzvü Arif Rəhimzadə çıxış edərək bildirib ki, ölkəmizdə gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu Öndər Heydər Əliyevin Azərbaycan gəncliyinə olan inamının, ümidinin tarixin yeni mərhələlərində özünü tam doğrultduğunu qeyd edən A.Rəhimzadə ölkə Prezidenti İlham Əliyevin böyük uzaqgörənliklə formalaşdırdığı gənclər siyasətinin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirib. O vurğulayıb ki, Azərbaycan müstəqillik dövründə dövlətçilik dəyərlərimizə bağlı, tarixi yaddaşı qoruyub saxlayan, vətənpərvər və əzmkar bir nəsil yetişdirib: "44 günlük Vətən müharibəsində tarixi qələbə göstərdi ki, bu nəsil Prezident İlham Əliyevin rəhbərliyi ilə xalqın milli maraqlarının pozulmasına heç zaman yol verməz, canları-qanları bahasına da olsa, Azərbaycanın adının, bayrağının ucalarda olmasını təmin edərlər".

YAP Veteranlar Şurasının üzvü, AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, fizika-riyaziyyat elmləri doktoru, professor Misir Mərdanov çıxış edərək Ümummilli Lider Heydər Əliyevin mənalı ömür yolundan, həyat və fəaliyyətinin mühüm məqamlarından danışıb. Ulu Öndərin müstəsna xidmətlərinin hələ uzun illər tədqiqatçıların diqqət mərkəzində olacağını qeyd edən M.Mərdanov vurğulayıb ki, müstəqil Azərbaycan Heydər Əliyevin şah əsəridir. O, Ümummilli Liderin ölkəmizin inkişafı istiqamətində başlatdığı nəhəng işlərin, möhtəşəm layihələrin bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini diqqətə çatdırıb. Sonra gənclərin sualları cavablandırılıb.

Tədbirdə rayonun ictimai-siyasi həyatında fəal iştirakına görə bir qrup partiya fəalına fəxri fərman, YAP sıralarına yeni qoşulmuş gənclərə isə üzvlük vəsiqələri təqdim olunub. Tədbir Yeni Azərbaycan Partiyasının Himninin səsləndirilməsi ilə başa çatıb.

# Türkiyə Ermənistana təzyiqini artıracaq

## Türkoloq Safarastyan nələri etiraf etdi?



***Ermənistanın Zəngəzur dəhlizinin açılmasına mane olması bəzi regional güclərin marağına uyğundur. Eyni zamanda, Rusiya sərhədçilərinin dəhlizə nəzarət etmək perspektivi də yolun açılmasına mane olan amillərdəndir. Qərbin Rusiyanı regiondan uzaqlaşdırmaq planına uyğun gəlməyən bu strategiya Ermənistanın müttəfiqinə qarşı sərt mövqe tutmasına səbəb olub.***

### Zəngəzur məsələsi onların (yəni, Azərbaycanla Türkiyənin) gündəmindən hələ çıxmayıb

Erməni türkoloq Ruben Safarastyan hesab edir ki, Zəngəzur dəhlizi sırf türk dövlətlərinin maraqlarına uyğun olduğuna görə Ermənistan bu layihədən imtina edib: "Reallıqda Zəngəzur məsələsi onların (yəni, Azərbaycanla Türkiyənin) gündəmindən hələ çıxmayıb. Elə bu yaxınlarda Ərdoğan Türk Ölkələri Təşkilatının sessiyasında belə bir bəyanatla çıxış etdi. Bildirdi ki, Zəngəzur dəhlizi Türkiyə üçün strateji əhəmiyyət kəsb edir. Üstəlik, bu əhəmiyyət təkcə Azərbaycanla birbaşa əlaqə deyil, həm də türk ölkələri ilə ünsiyyətin ən qısa yoludur. Deməli, bu proqram Azərbaycan qədər Türkiyə üçün də strateji əhəmiyyət kəsb edir".

"Bu layihə kifayət qədər bahalıdır, milyardlarla ölçülür və vaxt aparacaq"

Dəhlizin güc yolu ilə açılacağı ehtimalına toxunan Safarastyan bildirib ki, belə bir təhlükə var: "Burada bir problemi nəzərə almalıyıq. Çünki İğdırı Naxçıvanla birləşdirən, Türkiyə ərazisindən keçən dəmiryolu xətti hələ tikilməyib. Türkiyədə bu barədə illərdir danışılır, amma hələ tikintiyə başlanılmayıb. Bu yaxınlarda Türkiyə bu tikintini birgə həyata keçirmək üçün Azərbaycanla müqavilə imzaladı. Bu layihə kifayət qədər bahalıdır, milyardlarla ölçülür və vaxt aparacaq. Ona görə də Zəngəzur dəhlizinin dərhal fəaliyyətə başlaması Türkiyə üçün real deyil. Bu, gələcəyin işidir. Amma indi Türkiyə üçün Ermənistanın razılığını almaq vacibdir. Ona görə də hesab edirəm ki, indiki mərhələdə Türkiyə Ermənistana təzyiqlərini davam etdirəcək".

### "Onlar hələ danışıqlar başlamazdan əvvəl kifayət qədər ciddi işləyiblər"

Erməni türkoloq qeyd edib ki, bununla belə, Ermənistan dəhliz yox, suverenliyi, yurisdiksiyası və 100 faiz nəzarəti altında olacaq yolun açılmasında israrlı olmalıdır: "Türkiyə Ermənistanla danışıqlarda müəyyən taktikalardan istifadə edir. Bir şey əldə etsə, kiçik bir addım atacaq. Sonra bu davam edəcək. Amma əsas problemi, sərhədin açılmasını gələcəyə saxlayır. Bu, Türkiyənin taktikasıdır və hesab edirəm ki, onlar hələ danışıqlar başlamazdan əvvəl kifayət qədər ciddi işləyiblər. Həmin taktikanı hazırlayan xüsusi qrup var idi. İndi türklərin üçüncü ölkələr üçün sərhədin açıla biləcəyini bəyan etdiyi mərhələdir. Ermənistandan hansısa güzəştə getməyi gözləyirlər".

**Afət Tahirqızı**




# İƏT Zirvə toplantısı reallıqlarımızın təqdimatında növbəti platforma oldu

**PREZİDENT İLHAM ƏLİYEV: "İqtisadi Əməkdaşlıq Təşkilatının üzvü kimi Azərbaycan təşkilatın işində fəal iştirak edir"**

Müasir müstəqil Azərbaycan qarşısına qoyduğu bütün hədəflərə çatmaq üçün gələcəyə hesablanmış uğurlu daxili və xarici siyasət həyata keçirir. Bütün dövlətlər və xalqlarla sülh, dostluq şəraitində yaşamaq niyyətini dəfələrlə bəyan edən ölkəmiz ən mötəbər beynəlxalq təşkilatlarda təmsil olunaraq qarşılıqlı əlaqələrin genişləndirilməsi və bu münasibətlərin çoxşaxəli əməkdaşlığa çevrilməsi istiqamətində fəal iş aparır, dünyada və regionda sülhün, təhlükəsizliyin qorunmasına və möhkəmlənməsinə layiqli töhfələr verir. Etibarlı tərəfdaş, sözü ilə əməli bir olan, dünyada sülhün, əmin-amanlığın bərqərar olunmasına mühüm töhfələr verən müstəqil Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra bölgədə tamamilə yeni reallıq yaradıb. Regionda və dünyada nüfuzu durmadan artan Azərbaycanın bölgədə sülhün bərpası prosesində irəli sürdüyü təkliflər və təşəbbüslər istər region ölkələri, istərsə də dünyanın supergücləri və beynəlxalq təşkilatlar tərəfindən qəbul edilməkdədir. Azərbaycanın həyata keçirdiyi irimiqyaslı enerji və nəqliyyat layihələri regiondakı digər dövlətlərin də inkişafına, xalqların rifahına xidmət edir. Məhz bu amillər Azərbaycan ilə müxtəlif ölkələr arasında ikitərəfli əlaqələrin sürətli inkişafına təkan verir. Azərbaycanın xarici siyasətində Mərkəzi Asiya ölkələri, həmçinin Özbəkistan ilə münasibətlərin inkişafı mühüm yer tutur. Mərkəzi Asiyanın ən böyük dövlətlərindən olan və sürətlə inkişaf edən Özbəkistan ilə Azərbaycan arasında əlaqələr xüsusilə son illərdə durmadan genişlənir.

## AZƏRBAYCAN VƏ ÖZBƏKİSTAN ARASINDA STRATEJİ TƏRƏFDAŞLIQ UĞURLA İNKİŞAF EDİR

Azərbaycan Prezidenti İlham Əliyev Özbəkistanın paytaxtı Daşkənddə keçirilən İqtisadi Əməkdaşlıq Təşkilatının 16-cı Zirvə toplantısında çıxışında Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlığın uğurla inkişaf etdiyini deyib: "Azərbaycan və Özbəkistan arasında strateji tərəfdaşlıq uğurla inkişaf edir. Ötən il mən Özbəkistana bir dövlət səfəri və iki işgüzar səfər etmişəm. Hər səfərimdə Özbəkistanda hərtərəfli islahatların nəticələrinin, sosial və iqtisadi inkişafın şahidi oluram".

## İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATI AZƏRBAYCANIN BEYNƏLXALQ ƏMƏKDAŞLIĞININ PRİORİTET İSTİQAMƏTLƏRİNDƏNDİR

Heç şübhəsiz ki, Prezident İlham Əliyev siyasətinin prioritet istiqamətlərindən biri də Azərbaycanın ən yaxın tərəfdaşları və dünya ölkələri ilə uğurlu əməkdaşlıq əlaqələrinin qurulmasıdır. Belə ki, Prezident İlham Əliyevin düşünülmüş, planlı, sistemli, strateji xarici siyasətinin nəticəsi kimi bu gün Azərbaycan müxtəlif regional və beynəlxalq təşkilatların işində fəal iştirak edir, onların aparıcı üzvü kimi bu təşkilatların işinə töhfə verir, bəzi zamanlarda isə onlara rəhbərlik edir. 1992-ci ildən Azərbaycanın uğurla əməkdaşlıq etdiyi və aparıcı üzvlərindən olduğu təşkilatlardan biri də İqtisadi Əməkdaşlıq Təşkilatıdır (ECO). ECO-nun sənaye əməkdaşlığı; nəqliyyat və rabitə; infrastruktur və ictimai işlər; elm, təhsil və mədəniyyət; kənd təsərrüfatı sahəsi; energetika; narkotik maddələrin yayılmaması məsələləri üzrə fəaliyyət göstərən 8 komitəsi var. Komitələr ildə bir dəfə bir araya gəlir. Nazirlər Şurası da ən azı ildə bir dəfə yığıncaq keçirir. İqtisadi Əməkdaşlıq Təşkilatı 1993-cü ildə BMT Baş Assambleyasının 48-ci sessiyasında BMT-də, 1994-cü ildə isə İslam Təşkilatı Konfransında müşahidəçi statusu alıbdır. Ötən müddətdə Azərbaycan təşkilatın işində öz fəallığı ilə seçilib və təşkilata üzv olan digər dövlətlərlə qarşılıqlı faydalı əməkdaşlıq əlaqələri qurub. Təşkilat üzvlərinə xas mühüm məqamlardan biri də təşkilata üzv dövlətləri ortaq tarixi, iqtisadi və siyasi maraqların birləşdirməsidir.

Azərbaycanın İƏT-in fəaliyyətinə daim öz töhfəsini verməsi, təşkilatın üzvləri ilə iqtisadi və siyasi əlaqələrin gücləndirilməsi xarici siyasətimizin əsas istiqamətlərindəndir. Digər tərəfdən Azərbaycanın 2006 və 2012-ci illərdə İƏT Zirvə Toplantılarına ev sahibliyi etməsi ECO nəzdində Azərbaycana olan etimadın göstəricisidir. Bu toplantılarda qəbul olunmuş sənədlərdə üzv ölkələr arasında bir sıra siyasi, sosial-iqtisadi əlaqələrin əsas istiqamətləri, qarşılıqlı münasibətlərin prioritetləri öz əksini tapmışdır. Həmçinin Azərbaycanın ECO-nun Təmiz Enerji Mərkəzinin ev sahibi kimi təsdiqlənməsi Azərbaycana olan etimadın daha bir göstəricisidir. Bu il oktyabrın 10-da isə Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası keçirilib. Eyni zamanda, Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib. Dövlət başçısı İlham Əliyev xüsusi vurğulayıb ki, Azərbaycan ECO-nun üzv dövlətləri ilə ikitərəfli və çoxtərəfli əməkdaşlığı daha da genişləndirməkdə qərarlıdır və təşkilatın növbəti Zirvə görüşünə ev sahibliyi etməyə hazırdır.

## PREZİDENT İLHAM ƏLİYEVİN İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ 16-CI ZİRVƏ TOPLANTISINDA İŞTİRAK ETMƏSİ AZƏRBAYCANIN TƏŞKİLATIN FƏALİYYƏTİNƏ VERDİYİ ƏHƏMİYYƏTİN DAHA BİR NÜMUNƏSİDİR

Möhtərəm Prezident İlham Əliyevin cari ilin noyabrın 9-da İqtisadi Əməkdaşlıq Təşkilatının Özbəkistan Respublikasının paytaxtı Daşkənd şəhərində keçirilən 16-cı Zirvə toplantısında iştirak etməsi Azərbaycanın təşkilatın fəaliyyətinə verdiyi əhəmiyyətin daha bir nümunəsidir. Prezident İlham Əliyevin adıçəkilən toplantıda təşkilatın mühüm fəaliyyət istiqamətlərindən biri olan energetika sahəsi ilə bağlı çıxışında qeyd etdiyi kimi Azərbaycanın günəş və külək enerjisi ilə zəngin bir ölkə kimi ölkənin enerji ehtiyaclarının ödənilməsində bərpa olunan enerji ehtiyatlarına etdiyi və yaxın gələcəkdə, xüsusilə, işğaldan azad olunmuş ərazilərimizdə hidroelektrik stansiyalarının istifadəyə verilməsi ilə bağlı planlaşdırdığı yatırımlar həm də İƏT-in işinə və onun qarşıya qoyduğu məqsədlərin yerinə yetirilməsinə verdiyi önəmdən irəli gəlir.

Qeyd edək ki, Ulu Öndər Heydər Əliyev də ECO-nun fəaliyyətinə xüsusi önəm verirdi. Belə ki, Ümummilli Lider hələ 2002-ci ildə ECO-ya üzv ölkələrin İstanbulda keçirilmiş dövlət və hökumət başçılarının 7-ci Zirvə görüşündə təşkilatın daha səmərəli fəaliyyətinin təmin olunması məqsədilə Bakıda qurumun Tədqiqat Mərkəzinin yaradılması təklifini irəli sürüb. 2006-cı ildə EVO-nun ölkəmizdə IX Zirvə görüşündə Mərkəzin Bakı şəhərində təsis edilməsi təklifi Prezident İlham Əliyev tərəfindən yenidən irəli sürülüb və 2021-ci ilin martında təşkilatın Türkiyənin sədrliyi ilə videokonfrans vasitəsilə keçirilmiş XIV toplantısında Mərkəzin nizamnaməsi imzalanıb. Tədqiqat Mərkəzinin əsas fəaliyyət istiqamətləri iqtisadi tədqiqatlara əsaslanan regional əməkdaşlığın qurulması üçün ECO-ya və üzv ölkələrə yardım etməkdir.

Azərbaycan ECO-nun fəaliyyətinə töhfələrini davam etdirir. Ölkəmiz təşkilatın bir sıra toplantılarına uğurla ev sahibliyi edib. Belə ki, təşkilatın 9-cu və 12-ci Zirvə toplantıları müvafiq olaraq 2006-cı və 2012-ci illərdə Bakıda reallaşıb. Bu il oktyabrın 10-da isə Şuşada İqtisadi Əməkdaşlıq Təşkilatının Nazirlər Şurasının 27-ci iclası keçirilib. Eyni zamanda, Şuşa şəhəri 2026-cı il üçün ECO-nun turizm paytaxtı elan edilib. Azərbaycan təşkilat çərçivəsində əməkdaşlığın bütün sahələrdə genişlənməsinin tərəfdarıdır.

## PREZİDENT İLHAM ƏLİYEVİN ZİRVƏ TOPLANTISINDAKI ÇIXIŞI ÖLKƏMİZİN İQTİSADİ UĞURLARININ TƏQDİMATI OLDU

Dövlət başçısı İlham Əliyevin 16-cı Zirvə toplantısındakı çıxışı ölkəmizin iqtisadi uğurlarının təqdimatı oldu. Bildirildi ki, Azərbaycanın nəqliyyat və logistika infrastrukturu ECO-nun üzv dövlətləri üçün açıqdır. Son illərdə Azərbaycan özünün nəqliyyat infrastrukturuna milyardlarla dollar həcmində sərmayə qoyub. Bunun sayəsində Avrasiyanın Şərq-Qərb, Şimal-Cənub nəqliyyat dəhlizləri üzərində yerləşən nəqliyyat və logistika mərkəzlərindən birinə çevrilib. Hər iki dəhlizin Azərbaycandan keçən hissələri tam hazırdır. Artıq bu dəhlizlər boyu dəmir yolu xətlərinin yükaşırma qabiliyyətinin genişləndirilməsi üzərində işlər gedir.

Prezident İlham Əliyev Zirvə toplantısında Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirildiyini önə çəkib. Ölkəmizdə sabitliyin və normal biznes mühitinin mövcudluğu Azərbaycana investisiya axının sürətləndirilməsində öz sözünü deyir. Ümummilli Lider Heydər Əliyevin iqtisadiyyatın inkişafında neft amilinə xüsusi önəm verməsi dahi rəhbərin uzaqgörən siyasətinin nəticəsi idi. Azərbaycan qısa müddətdə böyük investisiyalar məkanına çevrildi. Bu, Azərbaycana beynəlxalq səviyyədə inamın və etimadın göstəricisidir. Yaradılan əlverişli biznes və investisiya mühiti, Azərbaycanın beynəlxalq aləmdə etibarlı tərəfdaş kimi tanınması, regionda əlverişli mövqeyə malik mühüm tranzit mərkəzinin formalaşması ölkəmizin investisiya qoyuluşu baxımından cəlbediciliyini artırır. 2003-cü ildən etibarən neft siyasətinin məntiqi davamı olaraq qeyri-neft sektorunun inkişaf etdirilməsi Azərbaycanın bütün çətinliklərdən uğurla çıxmasında əhəmiyyətli rol oynadı. Dövlət başçısı İlham Əliyevin "Neft kapitalını insan kapitalına çevirək!" tezisinin həyata keçirilməsi istiqamətində atılan mühüm addımlar bugünkü reallıqlarda özünün aydın ifadəsini tapır. Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə həyata keçirilən iqtisadi siyasət, aparılan islahatlar nəticəsində respublikamızda güclü iqtisadi potensial formalaşmışdır. Azərbaycanda bu gün geniş və hərtərəfli infrastrukturun qurulması, yüzlərlə müasir müəssisənin fəaliyyətə başlaması da məhz bunun nəticəsidir. Dövlət başçısı İlham Əliyev Zirvə toplantısında bu statistik rəqəmi açıqladı ki, ümumiyyətlə, son 20 ildə Azərbaycan iqtisadiyyatına 310 milyard dollar həcmində sərmayə qoyulub. Bunun 200 milyard dolları qeyri-neft sektorunun payına düşür. Bu, ölkəmizdə mövcud olan münbit və əlverişli sərmayə mühitinin nəticəsidir.

Prezident İlham Əliyev Zirvə toplantısında Azərbaycanın neft və qaz ehtiyatları ilə zəngin olmasına baxmayaraq, bərpaolunan enerji sektorunun inkişafına xüsusi diqqət yetirildiyini önə çəkib. Dövlət başçısı bu rəqəmləri toplantı iştirakçılarının diqqətinə çatdırıb ki, ölkəmizin bərpaolunan enerji potensialı quruda 37 qiqavat külək və günəş enerjisi, Xəzər dənizinin ölkəmizə məxsus sektorunda isə 157 qiqavat külək enerjisi təşkil edir. Azərbaycan yaxın gələcəkdə yaşıl və hidrogen enerjisinin ixracatçısına çevriləcək.

**RƏFİQƏ KAMALQIZI**

# Zəfərimiz gənclərin gözündə necə canlanır?



Məlumdur ki, cənab Prezident İlham Əliyevin müdrik siyasəti, rəşadətli ordumuzun gücü və şəhidlərimizin canı-qanı bahasına torpaqlarımız uzun həsrətdən sonra işğaldan azad edildi. Bəs, gəlin görək, torpaqlarımızın işğaldan azad edilməsi və möhtəşəm Zəfərimiz gənc fəalların gözündə necə canlanır? SİA onlar arasında bu barədə sorğu edərək fikirlərini öyrənib.



**Azərbaycanlı Tələbələr və Məzunlar Platformasının (ASAP) Sosial Media üzrə meneceri Aysel Əzizova:** "Gənclər azad edilmiş Azərbaycan torpaqlarına baxanda çətin günlər üzərində qələbə hekayəsi görürlər. Müharibə getsə də, terrora qarşı güclü tədbirlərin görülməsinə ehtiyac olsa da, biz zəfərə nail olduq.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uzaqgörən siyasət strategiyaları hal-hazırda illərdir ki, arzusunda olduğumuz tarixi əhəmiyyəti bölgənin - Qarabağın yenidən qurulmasına və inkişafına səbəb oldu. Gənclər üçün bu torpaqlar xəritədəki yerlərdən daha çox məna daşıyır. İşğaldan azad olunduqdan sonra azərbaycanlı gənclərin fəal iştirakı ilə Şuşada keçirilən tədbirlər buna misaldır.

Gənclər olaraq illər ərzində valideynlərimizdən, böyüklərimizdən işğaldan azad olunmuş torpaqlarımız haqqında hekayə və xatirələrini dinlərkən o torpaqları görmək istəyi günü-gündən çoxalırdı. İndi isə qürurla deyə bilərik ki, həmişə sadəcə haqqında eşitdiyimiz doğma torpaqlarımıza ayaq basa bilirik və həmin ərazilərin çiçəklənməsi üçün əlimizdən gələni edirik. Azərbaycan xalqının zəfəri bizə bir daha göstərir ki, biz birlikdə çalışdığımız zaman bir çox uğurlu nailiyyətlər qazana bilərik".

**ATGTİ-nin (Azərbaycan Tələbə Gənclər Təşkilatları İttifaqının) mətbuat katibi Nəzrin Hüseynzadə:** "Cənab Prezident İlham Əliyevin də vurğuladığı kimi torpaqlarımızın işğaldan azad olunmasında iştirak edən əsgərlərimizin böyük əksəriyyəti gənc nəslin nümayəndələri oldu.



Əlbəttə, onlar birinci Qarabağ müharibəsində döyüşmüş əsgərlərimizin açdığı cığırda onların davamçıları oldular. Bu baxımdan düşünürəm ki, gənc nəslin vətənpərvər ruhda yetişdirilməsi müstəsna əhəmiyyət daşıyır. Və biz də gənclər təşkilatları olaraq işğaldan azad olunmuş ərazilərimizlə bağlı mütəmadi layihə və tədbirlər həyata keçirir, torpaqlarımızın bərpa-quruculuq işlərinin sürətlə davam etdirilməsinə öz töhfəmizi verməyə çalışırıq. Təsadüfi deyil ki, bu yaxınlarda, daha dəqiq desəm, sentyabrda ATGTİ olaraq biz "Şuşa tələbələrin gözü ilə" layihəsini reallaşdırdıq. Layihə çərçivəsində müxtəlif ixtisaslarda təhsil alan 180-ə yaxın yerli və xarici tələbələrin Şuşa şəhərinə səfərini gerçəkləşdirdik. Jurnalistika, hüquq, diplomatiya və memarlıq ixtisasları üzrə təhsil alan tələbələr Şuşa şəhərini gəzib, real vəziyyətlə tanış olduqdan sonra öz ixtisasları istiqamətində şəhərin abadlaşması üçün öz ideyalarını bizə təqdim etdilər. Hesab edirəm ki, Qarabağ nəfəs ora ayaq basan insanlarımızla canlanır və canlanacaq. Bu baxımdan həm Qarabağ həqiqətlərini dünyaya çatdırmağa davam etməli, həm də paralel olaraq Vətənimizi qurub yaratmağa davam etməliyik. Çünki biz bu torpaqların əsl sahibləriyik və biz Qarabağda, Şərqi Zəngəzurda əbədi yaşayacağıq. Ordumuzun başlatdığı bu şanlı Zəfər yolunu davam etdirmək biz gənclərin ən azı mənəvi borcudur".

**"Davam" Gənclər Hərəkatının mətbuat katibi Lumu İsrəfilli:** "Azərbaycan xalqı tarixin bütün dövrlərində çətinliklərlə üzləşmiş və bu ağır sınaqlardan üzüağ çıxmağı bacarmışdır. Azərbaycanın ayrılmaz parçası Qarabağı bizə qovuşdurmaqla növbəti çətin sınaqdan qələbə ilə çıxmağımızda Ali Baş Komandan İlham Əliyevin Azərbaycan xalqına, xüsusilə gəncliyə olan inam və etimadı da mühüm əhəmiyyət kəsb edir. Bu gənclik Qarabağı görmədən, o torpaqlarda addımlamadan qəlbindəki Vətən sevgisi ilə illərlə onun həsrətini çəkdi. Bu gənclik 44 günlük Vətən müharibəsinin hər anında istər arxa cəbhədə, informasiya savaşında öz




dəstəyi və yardımları, tarixi həqiqətləri, qələmi və sözü ilə mübarizə apardı, istərsə də müharibənin aktiv fazasının cərəyan etdiyi cəbhədə bir əsgər olaraq Müzəffər Ordunun sıralarında mərdliklə döyüşdü. Qarabağı görməyən gəncliyin içindəki həsrət duyğusu, qalibiyyət sevgisi və haqq çağırışı bütün dünyanın təəccübünə səbəb oldu və hər kəs Azərbaycan gənclərinin yurda bağlılığının nələrə qadir olduğunu bir daha gördü.

Bu gün mən öz fikirlərimi qalib ölkənin məğrur gənci olaraq səsləndirirəm. Artıq illərin həsrəti inkişaf, yenidənqurma və bərpa işləri ilə əvəz olunub. İndi Qarabağ yenidən dirçəlir və yurdunun adamlarını qarşılayır. Bu tərəqqi, sözsüz ki, regiona da yeni nəfəs gətirməkdədir. Qarabağda aparılan infrastruktur layihələri öz müsbət nəticələrini göstərir və bu da dinamik inkişafa xüsusi təkan verir. Mənim gözümlə artıq Qarabağın, onun ürəyi Şuşanın dağlarının qara dumanı çəkilib. Artıq Qarabağın hər günü günəşli səhərlərlə açılır".

SORĞU

**"İRƏLİ" İctimai Birliyinin könüllüsü Nigar Əliyeva:** "İşğal edilmiş torpaqlarımızla bağlı hekayələr uşaqlıq xatirələrimdə daim kədərli səs tonu ilə canlanır. Ermənilər tərəfindən viran qoyulan torpaqlarımızın, öz doğma yurdlarından didərgin düşən minlərlə soydaşımızın acı hekayəsi unudulmayacaq tariximizdir. Ürək ağrısı ilə keçən 30 il ərzində bu kədəri hər gün bir Azərbaycanlı olaraq yaşadıq, daim yad etdik. Lakin bu müddət ərzində azadlığa olan inamımız heç zaman qırılmadı, gələcəyə olan parlaq ümidlərimiz bir an belə sönmədi.



3 il öncə Azərbaycanlı gənc bir fərd kimi bu acı hekayələrin tam əksini - zəfər çalmış Azərbaycanın uğurunu birbaşa özüm yaşadım, şahid oldum.Bu gün bütöv bir xalq olaraq göstərdiyimiz əzmkarlığa, həmyaşıd olduğum gənclərin istər ön, istər arxa cəbhədəki fəallığına, qorxmaz sərkərdəmizin mübarizəsinə tanıq olmaqdan qürur duyuram.

30 illik həsrətdən sonra 44 günlük Vətən müharibəsində qazandığımız şanlı qələbə bütün yaralarımıza məlhəm oldu, acılarımızı sardı, güvənimizi doğrultdu. Zəfər hissi kimi ali duyğunu yaşaya bildiyimiz üçün başda bizə bu güvəni aşılayan, etibar hissimizi daim canlı saxlayan Müzəffər Ali Baş Komandana təşəkkürümüzü bildirir, şəhidlərimizə Allahdan rəhmət diləyirik. Müharibə dövründə cəsarətli, igid Azərbaycan ordusunun göstərdiyi şücaətlə fəxr edirik. Bu şanlı mübarizənin bəhrəsinin müqəddəs torpaqlarımızı görmək, gəzmək, kəşf etmək, havasını köksümüzə çəkmək olduğunu düşünürəm.

Hazırda İşğaldan azad olunmuş torpaqlarımız gözümdə sakit və hüzurlu təbiət görüntüsünü,xoşbəxtlik və firavanlıq hissini canlandırır. Təsəvvürümdə canlandırdığım bu yerlərin hər guşəsi yad və amansız düşmən əlindən qurtulub – yeni və abaddır. Amma qədim tarixini gizlədə bilməyən, öz keçmiş kökünü daim bürüzə verən təsvir şəklində təcəssüm edir.

Şübhəsiz ki, bundan sonrakı illər ərzində bu torpaqlarımızda keçirəcəyimiz hər an həyatımıza necə gözəl xatirələr, xoş təəssüratlar qatacaq. Hər zaman şəhidlərimizi böyük qürurla anacaq, onların xatirəsini daim yad edəcəyik. Bizlərə miras qoyduqları bu torpaqları yenə canımız bahasına qoruyacaq və sahib çıxacağıq. Yaşasın Azərbaycan!"



**"Cavan" Gənclər Hərəkatı İctimai Birliyi PR və Kommunikasiya üzrə Menecer Sahilə Musayeva:** "Yəqin ki, bir-birindən tamamilə fərqlənən hissləri eyni anda yaşamağın necə bir şey olduğunu bizim gəncliyimizdən daha yaxşı kimsə anlaya bilməz. Vətən müharibəsi dövründə də, işğaldan azad olunmuş torpaqlarımıza səyahət edərkən də qürur, sevinc, kədər, qəzəb – bu duyğuların hər birini ən dərindən yaşayırıq. Çünki bir qarış torpağın belə hansı mübarizələr əsasında geri qazanıldığının fərqindəyik.

Bu gün isə içimizdə bir ümid var. 30 il ərzində viran qoyulmuş torpaqlarda yaradılan şəraiti, inkişafı gördükcə bu ümid daha da artır. Hər zamankindən daha böyük həvəs və əzmlə çalışırıq. Bilirik ki, ölkəmizin, iqtisadiyyatımızın, bütün digər sahələrin inkişafı məhz biz gənclərə bağlıdır. Müstəqilliyi, davamlı inkişafı qoruyub saxlamaq yalnız parlaq, bacarıqlı, savadlı nəsillə mümkündür.

Cavan Gənclər Hərəkatı olaraq, təşkil etdiyimiz layihələrin hansı məzmunda olmasından asılı olmayaraq, hər zaman gənclərimizə fayda qazandırmağa, müəyyən dəyərləri ötürməyə çalışırıq. Bu kimi dəyərləri anlayan və aşılayan gənclik sözsüz ki, zəfərlərə layiqdir".

***Ayşən Vəli***

# Qərbi Azərbaycanda etnik təmizləmə və soyqırımı







***Tarixin müxtəlif dönəmlərində azərbaycanlılar öz əzəli torpaqlarından uzaqlaşdırılmış, deportasiyaya məruz qalmışdılar. Mərhələ-mərhələ gerçəkləşdirilən məlum plan nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi torpaqlarından qovularaq kütləvi qətl və qırğınlara məruz qalıb, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskənləri məhv edilib.***



1988-1989-cu illərdə azərbaycanlıların tarixi-etnik torpaqlarından - Ermənistandan növbəti deportasiyası baş verib, nəticədə 250 min azərbaycanlı qaçqın düşüb. 1988-ci ildə Qərbi Azərbaycan ərazisində 261 azərbaycanlı kənd və qəsəbəsi boşaldılıb ki, onlardan da yalnız azərbaycanlılar yaşayan kənd və qəsəbələrin sayı 172, azərbaycanlılarla başqa millətlərin yanaşı yaşadığı qarışıq kənd və qəsəbələrin sayı isə 89-dur. 1988–1989-cu illər soyqırımı zamanı Qərbi Azərbaycanda mövcud məlumatlara görə, 226 soydaşımız ermənilər tərəfindən öldürülüb, (güllələnib, qəsdən avtomobil qəzasına salınıb, dağ yollarında donub və s.) 400 nəfərdən çox adam bədən xəsarəti alıb. Əlbəttə ki, bu statistikada həmin illərdə ermənilər tərəfindən öldürülmüş və yaralanmış soydaşlarımızın tam siyahısı deyil.

Zəngəzurdan İrəvana qədər dağıdılmış tarixi abidələr erməni vandallığınının bariz nümunəsidir. Bu ərazilərdə onlara məxsus yüzlərlə tarixi, maddi-mədəniyyət abidələri ermənilər tərəfindən dağıdılaraq məhv edildi. Ulu Öndər Heydər Əliyev deyirdi: "Son iki əsrdə Qafqazda azərbaycanlılara qarşı məqsədyönlü şəkildə həyata keçirilmiş etnik təmizləmə və soyqırımı siyasəti nəticəsində xalqımız ağır məhrumiyyətlərə, milli faciə və məşəqqətlərə məruz qalmışdır. Mərhələ-mərhələ gerçəkləşdirilən belə qeyri-insani siyasət nəticəsində azərbaycanlılar indi Ermənistan adlandırılan ərazidən - min illər boyu yaşadıqları öz doğma tarixi-etnik torpaqlarından didərgin salınaraq kütləvi qətl və qırğınlara məruz qalmış, xalqımıza məxsus minlərlə tarixi-mədəni abidə və yaşayış məskəni dağıdılıb viran edilmişdir".

## BÖYÜK BİR İRSİN NÜMUNƏLƏRİ İRƏVANDADIR

1988-ci ilə kimi Qərbi Azərbaycandakı 261 azərbaycanlı yaşayış məntəqəsinin 500-ə yaxın qəbristanlığı erməni tapdağı altında qaldı və həmin qəbristanlıqların əksəriyyəti yer üzündən silindi. Mənbələrə görə, bəzilərinin yerində park salınıb, bəzilərinin ərazisi şumlanaraq əkin sahəsinə çevrilib.

Qərbi Azərbaycan ölkəmizin tarixinə görə ən qədim bölgələrdən biridir. Burada mövcud olan qəbiristanlıqlardakı nadir məzar daş nümunələri, tarixi türk qalaları, məscidlər və s. bu məkanın tarixinin göstəricisidir. Böyük bir irsin nümunələri bu yerlərdədir.

Əsasən, 1988-ci ilin noyabr-dekabr aylarında Ermənistanın azərbaycanlılar yaşayan kəndlərinin əhalisini sıxışdırması, kəndlərə ərzaq göndərilməməsi, elektrik xətlərinin kəsilməsi və silahlı basqınlar edilməsi nəticəsində Ermənistanı tərk edən ailələrə yollarda divan tutulmuş, əmlakları qarət edilmiş, özləri isə qətlə yetirilmişlər. "Qərbi azərbaycanlılar qanunsuz olaraq dəfələrlə deportasiyaya məruz qalmış toplumdur. Onların hüquqları bərpa edilməlidir və onlar öz doğma torpaqlarına qayıtmalıdırlar", - deyə Prezident İlham Əliyev çıxışlarının birində bildirmişdir.

Bu və ya digər hadisələr dünya ictimaiyyətinin gözü qarşısında baş verirdi. Dünya buna, bu ədalətsizliyə susurdu. Necə ki, 30 ilə yaxın işğal altında qalan ərazilərimizin erməni təcavüzkarlarından azad olunmasına sülh yolu ilə nail ola bilmədik.

Uzun müddət Ermənistan tərəfindən işğal edilmiş torpaqlarımızı sülh yolu ilə azad etməyə çalışan dövlətimiz hər dəfə beynəlxalq təşkilatların etinasızlığı ilə üzləşmişdir. Xarici havadarları tərəfindən himayə olunan terrorçu Ermənistan hökuməti hər dəfə müxtəlif bəhanələrlə danışıqlardan imtina edir və torpaqlarımızı uzun müddət işğalda saxlamağa çalışırdı. Azərbaycan xalqı və dövləti heç zaman bu vəziyyətlə barışmaq fikrində deyildi. 44 günlük Vətən müharibəsində, istərsə də cari ilin sentyabrında 24 saatlıq antiterror tədbirləri ölkəmizin suveren ərazilərində həyata keçirilib və Azərbaycan beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində öz suverenliyini bərpa edib. Amma bugünki Azərbaycan reallıqlarını qəbul etməyənlər var. Xalqımızın inamını özünə qaytaran, Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm Qələbə yeni reallıqlar yaradıb. Zəfərimiz bütün dünyaya xalqımızı yenilməz bir bir xalq kimi təqdim edib.

Azərbaycan tərəfindən regionda dayanıqlı sülhün təmin edilməsi, gələcəkdə birgəyaşayış üçün münbit şəraitin yaradılması istiqamətində təşəbbüslər göstərir. Belə olduğu halda, Ermənistan tərəfindən azərbaycanlıların geriqayıtma hüququnun təmini istiqamətində hər hansı bir iş görülmür. Bu gün sivil dünyada yaşadığımız zamanda ikili standartlar beynəlxalq riyakarlığın təzahürüdür.

## AZƏRBAYCANA NƏ İSƏ DİKTƏ ETMƏK BU GÜNÜN REALLIQLARINDAN KƏNARDIR

Avropa İttifaqının 30 ilə yaxın müddətdə ölkəmizin suveren ərazilərinin Ermənistan tərəfindən hərbi təcavüzə məruz qalmasına biganə yanaşması, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti və insanlıq əleyhinə cinayətləri, 1 milyondan çox azərbaycanlının məcburi köçkün və qaçqın vəziyyətinə düşməsi faktını qınamaqdan çəkinməsi fonunda, Ermənistana ifadə olunan dəstək və Azərbaycana qarşı təhdid dolu ifadələr qurumun qərəzli siyasətinin və ikili standartlarının bariz nümunəsinin təzahürüdür.

Aİ tərəfinin Ermənistanı silahlandırmaq və bununla bölgəmizdə sülh və sabitliyə mane olan məkrli hərbiləşmə siyasətini dəstəkləmək səyləri əlbəttə ki, qəbulolunan deyil. Azərbaycana nə isə diktə etmək bu günün reallıqlarından kənardadır.

Beynəlxalq nüfuza malik Azərbaycan müstəqil siyasət yürüdən, sürətlə inkişaf edən dövlətdir.

***Nəzakət ƏLƏDDİNQIZI***



***Güclü dövlətlərin mizan-tərəzisində çaşmalar bu günün reallığıdır. Çünki ədalət itib, haqqı olanlar nahaqların qarşısında tərksilah edilib. İşğalçı ilə işğal olunan arasında fərq qoyulmur, əksər hallarda isə birincilərə üstünlük verilir. Bir az da dərinə getsək, heç bir qərəzə yol vermədən deyə bilərik ki, müharibələrin iştirakçısı olan dövlətlərin haqlı, yaxud haqsız olduğu deyil, xristian qardaşlarına tərəfkeşlik etmək missiyası daha qabarıq şəkildə özünü göstərir.***



# Qərəzin iki üzü – ikisi də Qərb



Noyabrın 15-də ABŞ Konqresinin Nümayəndələr Palatasında "Dağlıq Qarabağın gələcəyi" mövzusunda keçirilmiş dinləmələrdə də hər sözdə, hər cümlədə Azərbaycana qarşı qərəz açıq-aşkar özünü göstərib. Bunun yeganə səbəbi var. Bu barədə bir az sonra. Məsələnin əsas qayəsi ondan ibarətdir ki, dünya gücləri, ABŞ və digər Qərb ölkələri dünyada münasibətləri nizama salmağın yeganə yolunu bildikləri halda, bunu heç kimin qəbul etmədiyi bir ortamda həyata keçirməyə çalışırlar. Maraqlar naminə ədalətsizliyə tərəf çıxırlar, işğalçıları qoruyur, onları himayə edirlər.

Maraqlıdır, dinləmədə "şahid" qismində ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms Obrayn və ABŞ-ın Beynəlxalq İnkişaf Agentliyinin (USAID) rəhbərinin Avropa və Avrasiya bürosu üzrə köməkçisinin müavini Aleksander Sokolovksi iştirak ediblər. Dinləmə altkomitənin sədri konqresmen Tom Kinin giriş nitqi ilə başlayıb. Sədr Azərbaycan və Ermənistan arasında son illər ərzində baş verən müharibənin nəticələri, o cümlədən sentyabrın 19-da Azərbaycanın həyata keçirdiyi antiterror tədbirləri (dinləmələrdə isə "şahidlər" bunu hərbi əməliyyat adlandırıblar – müəllif) nəticəsində Qarabağda yaşayan ermənilərin Ermənistana köçməsinə toxunub. O, "Azərbaycanın Qarabağda güc tətbiq etməsindən məyus olduğunu" vurğulayıb.





Obrayn giriş nitqində ölkə administrasiyasının hal-hazırda üç istiqamət üzrə iş gördüyünü bildirib. O, Qarabağdan çıxan ermənilərin evlərinə maneəsiz dönməsinin mümkünlüyü, o cümlədən onların mülklərinin və mədəniyyətinin qorunmasının bu istiqamətlərdən birincisi olduğunu vurğulayıb. Daha sonra Obrayn Ermənistan hakimiyyətinin xarici münasibətlərinin çoxşaxəli olmasına açıq olduğuna və ABŞ rəhbəriyinin bu istiqamətdə Ermənistana ehtiyac duyulan dəstəyin verilməsinə çalışdığını deyib.

ABŞ dövlət katibi köməkçisinin müavini daha sonra fəaliyyətin üçüncü istiqamətinin tərəflərlə sülh sazişinin əldə edilməsi ilə bağlı ünsiyyətin saxlanılması olduğunu deyib: "Biz sülhün əldə olunmasında yaxından cəlb olunmuşuq. Sentyabrdan bəri Bakı və Yerevana 13 yüksək səviyyəli səfərlər edilib. Biz eyni zamanda türkiyəli həmkarlarla yaxından çalışırıq. Biz Azərbaycana aydın şəkildə çatdırmışıq ki, biz sülh istiqamətində irəliləyişin şahidi olmayana qədər Azərbaycanla münasibət 19 sentyabr hadisələrindən sonra adi qaydada davam etməyəcək".

Obrayndan sonra "şahid" qismində iştirak edən Sokolovki giriş nitqində USAID-in Ermənistan rəhbərliyi ilə görüşərək ölkənin ehtiyacları ilə bağlı məlumatlar topladığını, o cümlədən USAID rəhbəri Samanta Pauerin Ermənistana səfəri, eyni zamanda Azərbaycanla sərhəddə Qarabağdan köçmüş ermənilərlə görüşdüyünü qeyd edib. Sokolovski həmçinin Ermənistana dəstəyi və humanitar yardımın artırılması, o cümlədə islahatların keçirilməsi üçün uzunmüddətli dəstəkdən danışıb. Bildirib ki, ABŞ Konqresinin səxavətli dəstəyi sayəsində USAID Ermənistanda dəstəyini 2018-ci ildən bəri 50 faiz artıra bilib. Bu dəstək bizə Ermənistan hökuməti və vətəndaş cəmiyyəti ilə işləmək imkanı verdi. Eyni zamanda bu dəstək Ermənistanın iqtisadi artımı, vətəndaş iştirakçılı, enerji təchizatının diversifikasiyası və plüralistik informasiya mühitinin gücləndirilməsinə imkan yaradır.

Buradan bir məsələ qaynaqlanır, ABŞ, Fransa və digər Qərb dairələri, təşkilatları güclü, suveren, müstəqil Azərbaycan dövlətini qəbul edə bilmir. O da məlumdur ki, dinləmələrin keşirilməsinə ən çox dəstək verən ABŞ-dakı erməni lobbisi olub, tədbirin təşkilatçısı Konqresin Avropa məsələləri üzrə alt komitəsinin sədri Tomas Kin bundan əvvəl Ermənistanın ABŞ-dakı səfiri Lilit Makuns ilə görüşüb. Deməli məsələ aydındır. Əvvəlcə ermənilərlə məsləhətləşmələr aparılır, hətta 2018-ci ildən bu yana, yəni Paşinyanın hakimiyyətə gəlişindən sonra Ermənistanla əlaqələrin genişlənməsi, yardımların artırılması dab u nəticələrin əldə olunmasında tutarlı və əsas rol oynayıb. Ermənistanın indiki rəhbərliyi Qərbin əl buyruqçusu və onların marionetidir. Təbii ki, kukları oynadanlar onun gələcək taleyini də necə lazımdırsa, elə də yönləndirirlər.

Azərbaycanın isə nə ABŞ, nə də onun Konqresi qarşısında heç bir öhdəliyi yoxdur. Ona görə də ABŞ-ın Azərbaycanı ram etmək istəyir və bu istək açıq-aşkardır və ortadadır. ABŞ anlamalıdır ki, Azərbaycan olmadan nə Cənubi Qafqazda, nə də Mərkəzi Asiyada siyasəti olmayacaq. Konqres ABŞ-ın günbəgün artan dövlət borcundan başlayaraq, irqi ayrıseçkilik, polis zorakılığı, kriminalın baş alıb getməsi və digər çoxsaylı daxili problemlərlə məşğul olsaydı, daha düzgün olardı. ABŞ-ın dövlət borcu ilk dəfə 32 trilyon dolları ötüb. Bu barədə ABŞ Maliyyə Nazirliyi məlumat yayıb. Nazirliyin saytındakı "ümumi dövlət borcu" bölməsində iyunun 16-na 32,04 trilyon dollar məbləğində vəsait göstərilib. Bu, ABŞ-ın dövlət borcu üçün rekord göstəricidir. Hələ yanvar ayında ABŞ hökumətinin 31,4 trilyon dollar səviyyəsində müəyyən edilmiş borc tavanı aşılıb.

ABŞ-ın xarici siyasəti, daha doğrusu hərbi müdaxiləsi sayəsində Liviya, Suriya, İraqın, Əfqanıstanın düşdüyü vəziyyətə diqqət etmək kifayətdir ki, Vaşinqtonun hansı xislətə malik olduğunu aşkarlaya biləsən. 20 il Əfqanıstanı işğal altında saxlayan ABŞ bu ölkədə bir dənə də olsun obyekt tikmədi, yol salmadı, amma bu illər ərzində bütün ölkəni narkotik plantasiyasına çevirdi. Son məlumatlara görə, ABŞ Əfqanıstanı tərk etdikdən sonra bu ölkədə narkotik plantasiyalarının həcmi 20 dəfədən çox azalıb.

"Azərbaycan və Ermənistan arasında sülh danışıqlarında irəliləyiş əldə olunmayana qədər ABŞ və Azərbaycan arasında münasibətlər normallaşmayacaq", deyən ABŞ-ın niyyəti nədir? Bizə ağıl vermək, yoxsa özünün ağılsızlığını nümayiş etdirmək? ABŞ dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi Ceyms Obrayen bildirib ki, ABŞ bu ölkənin Azərbaycana birbaşa yardımlarını qadağan edən 907 saylı düzəlişdən (1992-ci ildə qəbul edilib – red.) imtinanın müddətini uzatmayacaq. Səbəbi də, guya vəziyyətin real yaxşılaşmasını görmədikləri üçün. Guya bütün bunlar sülhü təşviq etmək məqsədi daşıyır.

Əlavə edib ki, Azərbaycan və Ermənistan öz gələcəyini Rusiya-İran oxundan kənarda qura bilər. Yəni onları bir kənara qoyun və bizim çətirimizin altına girin. Əslində ABŞ rəsmiləri Ermənistanla Azərbaycanı qarışdırırlar, bizi tərəzinin eyni gözünə qoymağa çalışırlar. Guya Rusiya və İran oxu ətrafındakı gələcək həm Azərbaycan, həm də Ermənistan hökuməti üçün qeyri-stabil və arzuedilməzdir. Bəs ABŞ-ın yanında olmaq, necə, təhlükəsizlikdirmi?

**V.VƏLİYEV**

BAKURS



# Bəyliyini itirən masabəyi

***Toy deyəndə ilk ağlınıza nə gəlir? Ağ geyimli gəlin, yanında bəy, musiqi, əyləncə və bir də tamada. Sonuncu sözü oxuyanda üzünüzdə yaranmış ifadəni təxmin edə bilirəm. Öncə bir az təbəssüm yananan simanızı bu sözü oxuyar–oxumaz "turşutdunuz". İnkar etməyin, hiss etdim. Tamada sözünə allergiyamız var sanki, elə deyil? Bu söz bizim leksionumuzda olmayıb əvvəllər, gürcü dilindən gəlir, mənası "məclis idarə edən" deməkdir. Biz bu sözü daha öncələr masabəyi, süfrəbəyi, toybəyi kimi istifadə etmişik. Amma daha çox masabəyi kimi tanınır. Masabəyinin vəzifələri toyda deyilən tost-sağlıqlara nəzarət, çıxışların nizamlanması, asayişin bərpa olunması idi.***



Masabəyi bir növ toyun təşkilatçısı idi, onun vəzifələrinə toyun idarəsi, musiqiçilərin kontrolu, nitq söyləyənlərin çıxışının nizamlanması və s. daxildir. Səliqəli və hazırcavab olmalı, əhvalı yüksək tutmağı bacarmalı, yerində müdaxilə qabiliyyəti olmalı, improvizələri bacarmalıdır. Maraqlı burasıdır ki, bizim qədim ənənəmiz hesab edilən masabəyilik sonradan Sovet İttifaqının bütün respublikalarına yayıldı.

80-ci illərin sonu, 90-cı illərin əvvəlləri baş verən siyasi və iqtisadi qarışıqlıqdan dolayı bir çox insan, o cümlədən sənət adamları, aktyorlar işsiz qaldı, maddi problemləri yarandı. Hərə öz bildiyi kimi vəziyyətdən çıxmağa çalışdı. Kimisi alverə girişdi, kimisi qismətini xaricdə axtarmağa getdi, kimisi də tamadalığa başladı. Düzdür, o vaxtlar tamadalıq indiki qədər yayılmamışdı, bir neçə tanınmış sima vardı ki, bu işlə məşğul olurdular. Toylardakı tamada kabusu da elə o illərdə başladı. Çünki o vaxta qədər tamadaya "masabəyi" deyirdilər və hər adam masabəyi ola bilməzdi. Bunun üçün sinədəftər olmalı idin, bunun üçün əsl sənət, söz adamı olmaq lazım idi. Masabəyi şou adamı olmurdu, toyda gərəksiz mövzularda danışıb qonaqların ürəyini sıxmırdı, çox danışdığına görə döyülmürdü, boşboğaz hesab edilmirdi.



### Amma indi...

Bir də görürsən bir toyda tamada alıb əlinə mikrofonu, pullu qonaqları bir-bir dəvət edir səhnəyə, nə qopara bildi, qənimətdir. Əvvəl pulunu alır, bir bayağı mahnı da hədiyyə edir. Toyu olan gənclər bir tərəfdə qalıb, qonaqlar mahnı üstündə bir-birini qırır. Bu toy kiminçün çalınır, kimin ən yaddaqalan günüdür - bunu yada salan yoxdur. Toydan çıxanda yadında ancaq çəngəl-bıçağın cingiltisi, tamadanın şit zarafatları, musiqiçilərin qulaq pərdəsini deşib bir dəqiqədə 70 milyon beyin hüceyrəsini öldürəcək desibeldə olan ifaları, bəy-gəlinin bezgin siması qalır. Ayrı nə?

Əvvəllər masabəyliyinin yazılmamış bir qanunu da vardı - idarə etdiyi toyda spirtli içki içməməli idi. Masabəyinin peşəkarlığı bununla ölçülürmüş. Əgər masabəyi idarə etdiyi toyda spirtli içki içərdisə, o masabəyini bir də kimsə toya çağırmırdı. "Masabəyi" deyəndə tanıdığım ən alicənab adamı xatırlayıram həmişə. Hələ məktəbli ikən tanıdığım masabəyi orta yaşlı bir kişi idi. Onun toyları idarəetmə qabiliyyətinə hamı heyran idi. O olan toylarda heç vaxt dava olmazdı, heç bir narazılıq yaranmazdı. Söhbətinin, bəy tərifinin, məclis idarəsinin bir çəkisi, ağırlığı vardı. İndiyədək onun idarə etdiyi toylardan danışılır. İllər keçib, ondan sonra yüzlərlə tamada görmüşəm, amma onun kimi əfəndi masabəyi görmədim.

Masabəyinin vəzifəsinə toyu dava-dalaşsız idarə etmək, gələn qonaqların zövqünü oxşamaq daxil idi. Toyda çıxış etmək, təbrik ünvanlamaq istəyənlər masabəyinə yaxınlaşar, istəyini ona bildirərdi. O da münasib bir vaxtda həmin adama söz verərdi, məclis də maraqla o çıxışı dinləyərdi. Bəs indi bu marağın ölməsinə səbəb nədir? Niyə bir vaxtlar toyların bəzəyi, dadı-duzu hesab edilən masabəyilər indi sevilmir? Axı müasir toylarda tamada deyə tanıdığımız masabəyi də bu vəzifələri daşıyır. Amma əvvəllər söz almaq istəyən qonaq özü masabəyinə yaxınlaşırdı, indi tamada qır-saqqız olub qonağa yapışır. Əvvəllər kimin imkanı var idisə, masabəyinə o nəmər, xələt, ənam verirdi, indi tamada özü dili ilə istəyir. Əvvəllər toyda yığılan şabaş toy sahibinə təhvil verilirdi, indi tamada cibinə qoyur.

"Bu şəhərdə"nin məşhur siması "Siltuş Çölçəmənli" - qırmızı saçlı, böyük qarınlı, yaşıl pencəkli, çiyindən aşırmalı sarı şalvarlı bu tamada bəzi tamadaların bir qədər şişirdilmiş obrazıdır. Gülməli şeirləri, bayağı sağlıqları və "bir tuş" devizi ilə məşhur olan tamada Siltuş kimiləri reallıqda da az deyil. Daha doğrusu, müasir toylarda rast gəldiyimiz tamadaların arasında daha yaxşıları da var, daha pisləri də.

Məclis "aparmaq", idarə etmək bir mədəniyyətdir və bu mədəniyyətin də xüsusi inkişaf mərhələsi olur. Bir mahnı oxuyub klip çəkdirən də tamada olur, bir teatrda iki dəqiqəlik rol alan da. Yağışdan sonra artan göbələk misalı tamadaların sayəsində indi gerçək masabəylərinin də dəyəri itir. Bütün dəyərlər bu cür itir.

***Lalə Mehralı***





PROBLEM

# İndi də kişilərdən danışaq...



## II YAZI

Birinci yazımızda müasir dövrümüzdə qadınların geyimi barədə danışdıq və təəssüflə vurğuladıq ki, bu gün milli geyimləri ən çox assimilyasiyaya uğrayan xalqlar içərisində yerimiz heç də aşağı tərəf deyil, yuxarı başdır. Yüzilliklər boyu qoruyub saxladığımız dəyəri assimilyasiyanın qoynuna bu qədər asanlıqla necə ata bildik? Dəyişdirdik, özgələşdirdik, özümüzə bənzəməyən bir formaya saldıq. Geyimlə bağlı söhbətimizi davam etdirək və bu dəfə də kişilərdən danışaq...

### Kişilər bəzək-düzək sevməzdi...

Qədim dövrlərdən danışmırıq. O dövrdə qadın geyimləri kimi, kişi deyimləri də tamamilə fərqli idi.







Elə ki, sovetləşdik, qədim dövrlərdən az-maz saxlaya bildiyimiz geyimlər də dəyişdi. Bizim olanlarla heç bir əlaqəsi olmayan geyim formalarına keçdik. Elə həmin vaxtlardan indiyədək olan dövrə nəzər salaq.

Kişi deyiləndə həmişə gözlərimiz önündə geyimi-keçimi qadınlardan çox fərqli-sadə olan insan canlanıb. Onlar bəzək-düzək sevməzdi, sadə şalvar-pencəklərə, köynəklərə üstünlük verərdilər. Hər fəslə uyğun geyimləri, ayaqqabıları, üst geyimləri həm də dəbli olardı. Lakin bu dəb yalnız parçaların rəng tonlarında, paltarların tikilişində azacıq dəyişikliklərlə müşahidə edilirdi.

Zaman-zaman kişiləri bu paltarlarda gördüyümüz üçün onlar haqqında təəssüratlarımız da belə idi ki, kişilər bəzək-düzək sevmirlər, sadəliyə üstünlük verirlər. Bu paltarlar onlara həm də gözəl yaraşırdı. Əslimiz-kökümüz ağa, bəy olduğu üçün baxmayaraq ki, yeni bir ictimai-iqtisadi formasiyaya qədəm qoymuşduq, kişilər geyimləri ilə yenə də ağa, bəy kimi görünürdülər. Və bu görünüş də kişilərin spesifik obrazını yaradaraq yaddaşımıza hopdurmuşdu.



### İllər ötdükcə...

İllər ötdükcə, qadınların geyimi kimi, kişilərin də geyimi dəyişməyə başladı, yaddaşımızdakı o obrazlardan əsər-əlamət qalmadı. Nəinki geyimi, saç quruluşu, ayaqqabıları, hətta corabları da dəyişdi. Onlar da qadınlar kimi zinət əşyalarından istifadə etməyə başladılar. Əvvəlki kişi geyimləri qalsa olsa da, lakin bunları çox az adam geyindi. Müasir kişi geyimləri sadə geyimləri assimilyasiya edib, yerində ağalıq etməyə başladı.

Qadınlar şalvar geyinməyə başlayandan sonra kişilər şalvarlarında dəyişiklik etdilər ki, arada bir fərq olsun. Beləliklə, kişilərin şalvarları gündən-günə daralmağa başladı. Dar şalvarlar daha çox gənclərin seçimi oldu. O dərəcə daraldı ki, geyinib-çıxarmaqda olmazin əziyyəti ilə üz-üzə qaldılar, lakin "dəbdir",- deyib bu çətinliklərə sinə gərməyə də özlərində güc tapdılar.

Hələ qarşıda nələr olacaqdı, bunu isə zaman göstərəcəkdi...

### Həmin zaman gəlib çatdı

Aradan uzun illər ötmədi, bir də gördük ki, kişilərin geyimi də qadınlarınkı kimi ta müasirliyin zirvəsinə qalxıb. Dizləri, budları cırıq cins şalvarlar, şortlar, geniş, qolu olmayan köynəklər, müxtəlif formada olan, həm də rəngbərəng ayaqqabılar, rəngli, taykeş corablar və sair "dəbli" geyimlər əvvəlki sadə geyimlərin yerini aldı. Xüsusilə gənc oğlanların seçimi olan bu cür geyimlərdə onları görərkən hər dəfə yaddaşımızda qalan kişi obrazı gözlərimiz önünə gəldi və öz-özümüzə sual verdik ki, biz hara gedirik, görəsən?

Lakin gediləcək yol qalmayıb ta. Bu geyim-keçimlə yolun sonundayıq artıq. Çünki təsəvvürümüzə belə gətirməzdik ki, gün gələcək, kişiləri bu geyimlərdə görəcəyik. Cırıq şalvarlarda, şortlarda, geniş köynəklərdə... Saçları boyanmış, uzadılmış, hörülmüş vəziyyətdə... Corablarının hərəsi bir rəngdə, qollarında bilərzik, boyunlarında boyunbağı, qulaqlarında sırğa...

Bu kimi geyimləri dəb hesab edənlər, dəblə ayaqlaşdığını düşünənlər çoxdur. Lakin "kişinin kişi geyimi olmalıdır" barədə fikirləşən az adam qalıb indi.

### Dəbin qurbanı da oluruq

İstədiyimiz kimi görünmək çox halda bizə sərf etmir. Çünki dəb xətrinə geyindiyimiz paltarlar sağlamlığımızı əlimizdən alır. Məsələn, kişilər dar şalvar geyinməklə özləri üçün problemlər yaradırlar. Həkimlər deyir ki, kişi yumurtalıqlarının normal fəaliyyəti üçün aşağı temperatur şəraiti olmalıdır. Dar şalvar geyinərkən kişi yumurtalıqları bədənə daha çox sıxılır və temperatur yüksəlir. Buna görə də vaxtaşırı kəmər boşaldılmalı, dar, xüsusən də sintetik şalvarlardan imtina edilməlidir.

Kişilərə qalstuklarını çox bərk sıxmaq, köynəklərinin yuxarı düymələrini bağlamaq məsləhət deyil, çünki bu zaman qanın beyinə axını çətinləşir. Ateroskleroz zamanı beyinin qanla təchizatı zəif olduqda bu, xüsusən təhlükəlidir. Həmçinin dar ayaqqabı geyinmək də insan sağlamlığının düşmənidir. Dar ayaqqabı damarların varikoz genişlənməsinə, barmaqların əyilməsinə, döyənəklərin əmələ gəlməsinə səbəb ola bilər.

### Geyim mentalitetdir

Belə bir deyim var: insanı geyimi ilə qarşılayıb, ağlı ilə yola salarlar. Gözəl deyimdir. Lakin bu deyimin müasir dövrümüzlə əlaqəsi bir qədər zəifdir. Ona görə ki, indi bu deyimi bütün insanlara aid etmək olmaz. Çünki əksəriyyətimizin geyimi haqqımızda öz sözünü deyir. Qalır az sayda insan ki, onlar da bəli, geyimi ilə qarşılanıb, ağlı ilə yola salına bilər.

Geyim indiki cəmiyyətimizin gündəmdə olan ən aktual məsələlərindən biridir. Çünki əvvəlki illərin geyimləri ilə müasir geyimlər arasında böyük fərq var. Amma unutmamlı olduğumuz bir məsələ də var ki, geyim həm də mentalitetimizdir. Bir zamanların milli geyimləri ilə bugünkü geyimləri yan-yana qoyanda aralarındakı fərq artıq yerdən göyə qədər olan məsafə qədərdir. Biz nə etmişik? Həmin geyimləri qoruyub saxlamaq əvəzinə, onları "müasirləşdirə-müasirləşdirə" bugünkü vəziyyətə gətirib çıxarmışıq. Geyimlərimizin bu hala düşməsinin səbəbkarları hər birimizik. Onları istehsal edənlərdən tutmuş alıcısı olan hər birimiz günahkarıq. Çünki bu elə bir məsələdir ki, ona müdaxilə etməyə, münasibət bildirməyə hər birimizin haqqı var.

Çoxsaylı "dəbli" geyimlərlə mentalitetimizə zərbə vurmamalıyıq. Gözlərimizi açıb cəmiyyətə daha yaxşı baxmalı, övladlarımızın nə geyindiklərinə diqqət etməliyik. Düşünməliyik ki, bu geyimlər bizim cəmiyyətimizi hara aparır. Sabah gec olacaq, elə bu gün düşünmək lazımdır...

*Mətanət Məmmədova*

ARAŞDIRMA

# Bakının qış hazırlığı: Bu mövsümdə istilik problemi olacaqmı?

***Qlobal iqlim dəyişikliklərinin təsiri ilə bu il payız fəsli “ləğv edildi”, yaydan qışa keçdik. Bunun bizim mövzumuza dəxli yoxdur, Bakının istilik təchizatı sistemi havanın temperaturu ilə yox, dəqiq təqvim rejimi ilə işləməlidir. Ona görə də, qış rejiminə keçidin dəqiqliyi və istilik təchizatının hazırlanması ilə bağlı hazırkı vəziyyəti qiymətləndirmək lazımdır. Biz də bu yazıda buna aydınlıq gətirməyə çalışacağıq- Bakı gözlənilən soyuq qışa nə dərəcədə hazırdır, daha doğrusu, binaların istiliklə təmin edilməsi sahəsində işlər necədir?***



*Şəhərdəki binaların yarıdan çoxu bu il də mərkəzləşmiş sistemdən istilik ala bilməyəcək, “Azəristiliktəchizat” ASC isə tariflərin artırılmasının davasını döyür*





Mövzuya girişdən əvvəl kiçik bir xatırlatma vermək yerinə düşərdi. Ötən əsrin sonlarına yaxın Bakıda və respublikanın bütün şəhərlərində, demək olar ki, bütün binalar mərkəzi istilik sisteminə qoşulmuş, yaşayış binaları, idarə və müəssisələrin qazanxanadan istiliklə təmin edilməsi təşkil edilmişdi. Lakin 90-cı illərin əvvəllərində sosialist sistemindən bazar iqtisadiyyatına keçidin doğurduğu ağır vəziyyət bu sistemi sıradan çıxardı.

Qazanxanalar, boru xətləri dağıdıldı, bu sistemin fəaliyyəti son dərəcə zəiflədi. Nəticədə, 90-cı illərdə binaların çox az hissəsi istiliklə təmin olunurdu. Həm kifayət qədər qaz yox idi, həm də istilik sisteminin bərpasına külli miqdarda vəsait tələb olunurdu ki, dövlətin də buna maddi imkanı çatmırdı.

Sonrakı dövrlərdə ölkəmizin maliyyə vəziyyəti yaxşılaşdığından bu sistemin bərpasına başlanıldı. Hər il Bakıda istiliklə təmin olunan binaların sayı artmağa başladı. Buna baxmayaraq bu sahədə vəziyyət arzuolunan səviyyədə deyil, yəni istiliklə təmin olunan binaların sayı o qədər də çox deyil. Hələ ki, paytaxt binalarının təxminən üçdəikisi mərkəzləşmiş istilik sistemi ilə təmin olunmayıb.

Ona görə də, istilik verilməyən binaların sakinlərinin əksəriyyəti “Kombi” deyilən fərdi istilik sistemi quraşdırıb. Bunu quraşdırmaq azı 2 minə başa gəlir, amma elektrik qızdırıcılarına nisbətən xeyli ucuz başa gələn istiliklə təmin olunursan.

Qazanxanadan verilən istilik bəzən mənzili qızdırmağa kifayət eləmir, bəzi hallarda kəsilir, sakinlər evdə soyuqdan donurlar, amma şəxsi sistemdə belə hallar olmur, üstəlik tempraturu özün tənzimləyə bilirsən. Ona görə də, istiliklə təchiz olunan binalarda da bir çoxları “Kombi” quraşdırır. Amma orta statistik azərbaycanlının iqtisadi vəziyyətinə görə, bu çox bahalı sistemdir, adamların çoxunun onu quraşdırmaq üçün maddi imkanı yoxdur. Yaxşı olardı ki, bütün binalara istilik verilərdi.

Problemlərdən biri də odur ki, qazanxalar işləməyən vaxtlarda bəziləri istilik batareyalarını və



boru xətlərini söküb, indi yenidən bərpa etməyə vəsait tapa bilmirlər deyə istilik ala bilmirlər. Onillərlə işləmədiyindən elə bildilər daha bu sistem bir də düzəlməyəcək, amma indi peşmandırlar, batareyaları və xətləri sökməsəydilər, indi ucuz qiymətə istilik ala bilərdilər. İstilik haqqı ayda 10-20 manat təşkil edir. Halbuki, qışda istiliyə görə ayda azı azı 100 manat xərcləri çıxır.

Qeyd edək ki, əhali qrupuna aid abunəçilər 1 kvadratmetr mənzil sahəsi üçün 15, qeyri-əhali obyektləri isə 25 qəpik ödəyir.

İstiliklə təmin olunmayan binalar daha çox yeni tikilənlərdir. Onlarda fərdi və kollektiv “Kombi” sistemi quraşdırılır. Bərpa işi əsasən köhnə binalarda aparılır, çünki burada həm hazır sistem- qazanxana, xətlər, batareyalar, çənlər var, həm də daha asan başa gəlir, yenilərdə isə binanı tikən şirkət və binanın sahibi sifariş verməlidir ki, onlar da mənzili satıb aradan çıxırlar və bunda maraqlı deyillər.

Ümumiyyətlə, istilik problemi həm yeni, həm də köhnə binalarda var. Lakin köhnə binalarla müqayisədə təbii ki, yeni binalarda vəziyyət nisbətən yaxşıdır. Belə ki, köhnə binaların bir çoxunda mərkəzləşmiş istixanalar bərpa olunmayıb və mənzillərə istilik verilmir. Halbuki, Sovet binalarının hamısında bu sistem var idi, qazanxanalar fəaliyyət göstərirdi.

Yeni binalarda isə ən azı sakinlər fərdi istilik sistemi quraşdırır. İstilik sistemi olmayan binalarda fərdi “Kombi” sistemi quraşdıra bilməyən sakinlər ya elektrik qızdırıcılarından istifadə edir, ya da primitiv qaz cihazlarını işlədərək mənzillərini qızdırırlar. Bu həm maddi cəhətdən baha başa gəlir, həm də təhlükəsizlik nöqteyinəzərdən həddən artıq risklidir.

Bəs aidiyyatı orqan bu problemi aradan qaldırmaq üçün hansı işlər görür? “Azəristiliktəchizat” ASC-nin verdiyi məlumata görə, cari mövsümdə Bakı şəhəri və respublikanın regionlarında ASC-nin balansında olan 561 qazanxana və 88 istilik məntəqəsi vasitəsi ilə 3863 yaşayış binasının, 184 minə yaxın mənzilin, 285 orta məktəbin, 127 uşaq bağçasının, 151 səhiyyə müəssisəsinin və 2500-ə yaxın sosial və təsərrüfat hesablı obyektlərin istiliklə təmin edilməsi nəzərdə tutulur.

Göründüyü kimi, bu rəqəmlər ölkədəki yaşayış və qeyri-yaşayış məntəqələrinin sayı ilə müqayisədə həddən artıq azdır. Yaxşı olar ki, “Azəristiliktəchizat” ASC rəhbərliyi “istilik tarifləri artırılmalıdır, əhali buna razıdır” tipli bəyanatların əvəzində mümkün qədər çox binanın mərkəzi istilik sistemindən təchiz olunması üçün işlər aparsın.

Qiymətin artırılmasına heç bir əsas yoxdur. Əvvəla, bir neçə il əvvəl istilik tarifləri 50 faiz artırılıb. İkincisi, 2 il qabaq ASC-yə verilən qazın qiyməti 35 faiz azaldılaraq 20 qəpikdən 13 qəpiyə salınıb. Daha bundan artıq nə güzəştlər edilməlidir ki, “Azəristiliktəchizat” ASC öz işini normal qura bilsin.

ASC-nin abonentlərdən xidmət haqqının 2/3-ni yığır. Lakin ASC yığılan bu vəsaitlərdən Azəriqaz İB-dən aldığı qazın pulunu ödəmir. Uzun illərdir ki, 2 təşkilat arasında bu problem davam edir. Azəriqaz humanist yanaşma ilə “Azəristiliktəchizat”a borcları tədricən ödəmək üçün vaxt versə də, hələ də borclar tam ödənilməyib.

Hazırda istilik sayğaclarının quraşdırılması prosesi davam edir. İstilik sayğacları konkret verilən istilik enerjisinin miqdarını ölçəcək və hesablaşmalar da bunun əsasında aparılacaq. Sayğacı olmayan abonentlər isə 1 kvm-15 qəpik tarifi ilə ödəniş edəcəklər.

Xoşbəxtlikdən “Azəristiliktəchizat”dan fərqli olaraq, “Azəriqaz” və “Azərişıq” normal işləyir və əhalini qaz və elektriklə təmin edir. Əks halda, bir çox sakinlər soyuq evlərdə yaşamalı olardı. Ümid edirik ki, bu qış mənzillərin istilik məsələsində problem olmayacaq.



**Elçin Bayramlı**

***Azərbaycanla sülhə hazır olması ilə bağlı rəsmi İrəvan bir-birinin ardınca bəyanatlar versə də, bunun əksini görürük. Yəni, sülhə meyillilik əvəzinə, işğalçı ölkədə ancaq aqressivlik özünü büruzə verir. Ermənistanın, ümumilikdə, erməni cəmiyyətinin ancaq təxribatçı hərəkətlərini müşahidə edirik. Hələ də sülh niyyətli olmadığını erməni cəmiyyəti hər addımda göstərməkdədir. Hətta idman yarışlarında belə Ermənistan tərəfi ölkəmizə qarşı hansı şəkildə düşmən mövqedə olduğunu qətiyyən gizlətmir, çox qabarıq şəkildə bunu nümayiş etdirir və bununla həm də bütün dünya ictimaiyyətinə hörmətsizlik, saymazlıq edir. Halbuki bu, qorxu kompleksindən, acizlik əlamətindən irəli gəlir və hayların hələ də dünyamiqyaslı yarışlara mədəni səviyyələrinin çatmadığını təsdiq edir.***




# Ermənilərin gizlədə bilmədiyi QORXU KOMPLEKSİ VƏ ACİZLİK

Diqqətə çatdırmaq yerinə düşərdi ki, idman yarışının, çempionatın insident olmadan, hətta iştirakçı ölkələrə hörmətsizlik belə edilmədən keçiriləcəyinə Ermənistan tərəfinin zəmanət verməsinə baxmayaraq, bütün dünya ictimaiyyəti cari ilin aprel ayında həmin ölkədə elə bir aqressivliyin, hətta elə bir vəhşiliyin şahidi oldu ki, bunu heç nə ilə izah etmək mümkün deyil. Əslində, erməni cəmiyyəti də, rəsmi İrəvan da nə isə izah etmək niyyətində də görünmədi. Yəni, ağır atletika üzrə Avropa çempionatının açılış mərasimi zamanı dizayner Aram Nikolyanın Azərbaycan bayrağını əldən "qaparaq" yandırması və səhnədən qaçaraq uzaqlaşması barədə Ermənistanın kimə isə, nə isə izah etmək fikri də olmadı. Əvvəla, ona görə ki, rəsmi İrəvan ölkədə belə bir aqressivliyə artıq alışqandır və bunun bütün dünya ictimaiyyətinə, eləcə də beynəlxalq idmaq qurumlarına hörmətsizlik olduğunun guya heç fərqində də deyil. Digər tərəfdən də, Ermənistana bununla bağlı hansısa təpkilər olmur deyə, belə aqressiv hərəkətlər davamlı xarakter alır. Bir sözlə, Ermənistanda belə aqressiv hərəkətlərin olmasına səbəb, həmin ölkəyə hələ də istənilən rakursda, həmçinin idman yarışları, çempionatlarla əlaqədar davranışlarına görə həddinin bildirilməməsidir və hədsizlik həm də bundan irəli gəlir, hansı ki, bununla bağlı qlobal miqyasda ciddi müzakirələrə ehtiyac var.

İdmanın siyasətdən uzaq olduğu barədə çox eşitmişik, amma deyəsən, bunu Ermənistan ictimaiyyəti, erməni cəmiyyəti nə eşitməyib, nə də qəbul edə, anlaya bilmir. Anlaya bilmir ki, idmanda rəqabət heç də siyasi rəqabət deyil. Yarışların, sempionatların, olimpiadaların, ümumilikdə, idman tədbirlərinin keçirilməsinin siyasətlə heç bir əlaqəsi olmadığı hələ də erməni cəmiyyətinə çatmayıb. Görəsən, bunu dərk etməkdə çətinlik çəkirlər, yoxsa nəzərə almaq istəmirlər? Görünür, sadəcə vəziyyətdən namərdcəsinə istifadə etmək həmin ölkədə ənənə halını alıb və normalar, normativlər, etik davranışlar Ermənistan üçün ən axırıncı yerdə durur. Əks halda, işğalçı ölkənin hansısa normalara riayət etdiyini müşahidə edərdik. Amma erməni cəmiyyəti bu normalara, məhz Azərbaycanın riayət etdiyini dəfələrlə seyr edib və hansısa irad belə bildirə bilməyib. Çünki çoxlu sayda yüksək səviyyəli beynəlxalq yarışlara ev sahibliyi edən Azərbaycanda keçirilən idman yarışlarının bəzilərində Ermənistandan da idmançılar iştirak ediblər və onlara qarşı hansısa aqressivlik edildiyi bircə dəfə də müşahidə edilməyib. Hətta müxtəlif ölkələrin milli komandalarında çıxış edən erməni əsilli idmançıların ölkəmizdə keçirilən yarışlarda iştirak etməsi halları da olub və heç vaxt Ermənistan bayrağının yandırılması kimi bir hadisə qeydə alınmayıb. Ümumiyyətlə, Ermənistan idmançılarına və ya müxtəlif ölkələrin milli komandalarında təmsil olunan etnik ermənilərə qarşı da hər hansı digər formada təzyiqlərin göstərilməsi hallarına da qətiyyən rast gəlinməyib.

Noyabrın 10-dan 12-dək İrəvanda keçirilən sambo üzrə dünya çempionatı bir daha sübut etdi ki, Ermənistan idmanın siyasətdən kənar olduğunu hələ də ya anlaya, ya da qəbul edə bilmir. Rusiya, Belarus, Fransa, eləcə də qaçqın komandalarının nümayəndələri İrəvanda keçirilən dünya çempionatında neytral statusda mübarizə aparıblar və bu barədə Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax da bilirdi. Onu da bilirdi ki, Azərbaycan millisi İrəvanda keçirilən sambo üzrə dünya çempionatına nə dəvət almayıb, nə də iştirak etməyib. Cənubi Qafqazın bir cırtdan ölkəsində keçirilən yarışda iştirak etmək, yaxud orada təmsil olunmaq qətiyyən müzakirə mövzusu deyil, bu heç maraq dairəsində də ola bilməz. Müzakirə mövzusu odur ki, Ermənistan dəvət etməyib, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax da bunu görməməzliyə vurub. Yəni, Tomas Bax da bilmir ki, idman siyasətdən kənardır? Bəlkə, ona bu barədə xatırlatma etmək lazım gəlirdi? Hər halda, bu boyda komitənin prezidenti xatırlatmaya qətiyyən ehtiyac duymamalı idi.

Əslində, Azərbaycan millisinin İrəvanda keçirilən sambo üzrə dünya çempionatlnda iştirak etməməsi tamamilə yerinə düşdü. Hər halda, ölkəmizin milli maraqlarına zidd olan hərəkətlərə yol verilən tədbirdə iştirak etmək marağı qətiyyən ola bilməz. Qondarma qurumun guya bayrağı hesab olunan əski parçasının çempionatın keçirildiyi Karen Dəmirçyan adına idman-konsert kompleksinin tribunalarına aparıldığı barədə Ermənistan mətbuatı utanmadan, özü də sevinc hissi ilə məlumat yayırsa, deməli, erməni cəmiyyəti hələ də idman yarışları ilə siyasəti baş-ayaq qarışdırır və belə bir yarışda iştirak edilməməsi məhz elə bu baxımdan da daha münasib hesab olunur. Sadə dildə desək, nə yaxşı ki, belə bir idman yarışında Azərbaycanı təmsil edən idmançılarımız iştirak etməyiblər. Amma istənilən halda, dəvət olmadığına görə Ermənistan tərəfi bir yana, Beynəlxalq Olimpiya Komitəsinin prezidenti Tomas Bax hesabat xarakterli bir cavab verməlidir.

Bir daha təkrarən qeyd edək ki, məqsədimiz və müzakirəmiz heç də Ermənistanda keçirilən həmin o sambo üzrə dünya çempionatında iştiraka görə deyil. Müzakirə mövzusu işğalçı ölkə olan Ermənistanın məhz Azərbaycana qarşı aqressiv münasibəti və təxribatıdır ki, bunu, çempionata ölkəmizi dəvət etməmələrində də, qondarma rejimin dırnaqarası "bayraq" adlandırdığı həmin o əski parçasının çempionatın keçirildiyi idman-konsert kompleksinin tribunalarına aparıldığı da, üstəlik, Ermənistan telekanallarında belə axmaq hərəkətin və hədsizliyin canlı nümayiş etdirilməsi də təsdiq edir. Bu həm də bir təxribatdır, hansıki idman yarışlarında edilir. Sözsüz ki, hazırda Ermənistanın Sambo Federasiyasının prezidenti olan Mikael Ayrapetyanın şəxsi razılığı olmasaydı, bu cür təxribat baş verə bilməzdi. Hətta Beynəlxalq Sambo Federasiyasının prezidenti Vasili Şestakov da belə təxribatlara görə cavab verməlidir. Nəinki cavab verməlidir, İrəvanda baş nazir Nikol Paşinyanla görüşərək ona xatirə medalı təqdim edən Şestakov, qondarma rejimin qondarma da sayılan bayrağı kimi təqdim edilən əski parçasının tribunaya aparılmasına görə mütləq şəkildə, ən azından reaksiya verməlidir. Hətta belə bir reaksiya verməyə borcludur. Hər halda Şestakov unutmayıb ki, sambo üzrə beynəlxalq yarışlar Azərbaycanda da dəfələrlə keçirilib və bilir ki, bundan sonra da keçiriləcək. Hətta onu da bilir ki, Azərbaycan belə cılızlıq, belə acizlik heç zaman etməz. Çünki ölkəmizin hansısa kompleksi, ələlxüsus da Ermənistanda olan qorxu kompleksi qətiyyən yoxdur.

Bəli, bu dəfə də idman yarışları, sambo üzrə dünya çempionatı fonunda Ermənistanın acizliyi özünü göstərdi və bütün dünya həmin ölkənin rəzalətini seyr etdi. Qondarma bayraqlarını qoyub döyüş meydanından qaçanların sonra idman yarışında həmin o əski parçasını tribunaya aparması, təxribat olmaqla yanaşı, həm də çox gülünc görünür. Döyüş meydanında üzə çıxara bilmədikləri əski parçasını, məhz Azərbaycanın da qatılmadığı idman yarışında ortaya çıxarılması qorxaqlığın, acizliyin əlamətidir. Həmin o əski parçasını ordumuzun ayaqları altına atıb qaçanlar, qaçıb aradan çıxmaq üçün qondarma qurumun da buraxılacağını bəyan edənlər aradan çıxandan sonra öz aralarında həmin o əskini ortaya çıxarırlarsa, bu qorxu kompleksi deməkdir. Ermənistan bu dəfə də idman yarışları ilə bağlı sınaqdan keçə bilmədi və buna da məhz qorxu kompleksi və acizliyi imkan vermədi. Bəlkə də əvvəlki yarışda Nikolyanın ölkəmizin bayrağını yandırması, bu yarışda da Azərbaycanın dəvət olunmaması və qondarma rejimin "əskisinin" tribunaya daşınması Ermənistanda "qəhrəmanlıq" sayıla bilər, amma kənardan baxanda açıq şəkildə görünür ki, çoxlu sayda milli mif və layihələrinin dağılmasından sonra meydana çıxan kompleksləri, ələlxüsus da qorxu komplekslərini Ermənistan tərəfi ucuz və primitiv yolla boğmağa çalışır. Elə rəzalət, acizlik, qorxu kompleksi də məhz budur, hansı ki, haylar bunu idman yarışında da gizlədə bilmədilər.

Ermənilər öz evlərində, özlərinə məxsus olan künc-bucaqda, kimsənin görmədiyi bir yerdə, "xəlvəti bir güşədə" istər qorxu kompleksi olsun, istərsə də nə olur-olsun, bu şəkildə öz "ehtiyaclarını" ödəmək üçün, özlərinə təsəlli vermək üçün belə hərəkətlər etsəydilər, bütün bunlara fikir verməzdik. Amma onların bunu beynəlxalq idman yarışlarında etməsi nə diqqətdən yayına bilməz, nə də cavabsız qalması mümkün deyil. Özlərinə istər təsəlli vermək üçün, istərsə də "ehtiyaclarını" ödəmək üçün belə hədsizlik etmələrinə görə "hesab sorulmalıdır" və elə özləri hamıdan yaxşı bilirlər ki, hədsizliklərinə görə hesab vermək məcburiyyətindən yaxa qurtara bilməzlər.

***İnam Hacıyev***

# Dağıdıcı müxalifətin bolşevizm təfəkkürü

**_Siyasi arenada baş verən prosesləri analiz etsək, o qənaətə gəlmək olar ki, dağıdıcı müxalifət Azərbaycanın əldə etdiyi uğurları, xüsusilə də 30 illik işğala son qoyaraq, parlaq qələbə qazanmasından ciddi narahat olub. Bu uğurları həzm edə bilmədiklərindən dövlətimizin atributlarına, mili maraqlarımıza qarşı qarayaxma kampaniyası aparırlar._**





Əli Kərimli, Cəmil Həsənli, Tofiq Yaqublu, Gültəkin Hacıbəyli və digərləri xarici məkrli dairələrin maddi-mənəvi dəstəyi ilə ölkədə ictimai-siyasi sabitliyi pozmağa, cəmiyyətdə bir narahatçılıq yaratmağa çalışırlar. Lakin bu məxluqlar dərk etmirlər ki, onların fəaliyyət istiqamətləri ağır vəziyyətlərinin daha da gərginləşməsinə xidmət edir. Nəzərə almaq lazımdır ki, dağıdıcı müxalif funksionerlərinin yarıtmaz siyasət aparmaları nəinki cəmiyyətdə, eləcə də rəhbərlik etdikləri partiyalar daxilində də narazılıqla qarşılanır. Özlərindən razı və müştəbeh partiya sədrləri bu narazılıqlara əhəmiyyətsiz hal kimi yanaşsalar da, sıravi partiya üzvləri səbirli olub, nəyəsə ümid bəsləmək niyyətində olmurlar. Bəzən daxili istefaların baş verməsi də sıravilərin rəhbərliyin əxlaqdan kənar siyasətinə dözümsüz yanaşmalarından qaynaqlanır. Misal olaraq, Əli Kərimlinin anormal siyasətinin acı və ağır nəticəsi olaraq AXCP-nin dəfələrlə parçalanmasını göstərmək olar. Dünən olduğu kimi, bu gün də Ə.Kərimli yanlış siyasətini davam etdirməkdədir. Bu isə onu deməyə əsas verir ki, Ə.Kərimli səhvlərindən dərs götürmür, AXCP-dən olan istefalar, parçalanmalar onun üçün mənasız görünür. Bundan da çıxış edərək demək olar ki, Ə.Kərimli üçün əsas hədəf və məqsəd daha çox xarici ağalarından qrantlar almaqdır. Məhz xarici qrantlara həvəsli olduğundan Qarabağ zəfərindən, bayrağımızın Xankəndidə dalğalanmasından, noyabrın 8-də Xankəndidə parlaq paradın keçirilməsindən bir kəlmə də olsun danışmayır, əksinə, təxribat xarakterli, boş və mənasız açıqlamalarla çıxış edir.

### AXCP sədri istiqaməti bəlli olmayan qaranlıq tunelin hərəkətsiz sakininə çevrilib

Son vaxtlar Ə.Kərimli mövzu qıtlığı ilə üzləşdiyindən yenidən Rusiya-Azərbaycan əlaqələri barədə cəfəng fikirlər səsləndirməyə başlayıb. Bu da ona dəlalət edir ki, Avropanın qaranlıq dairələri regionda maraqlarının təmin olunmasında Ə.Kərimli kimi əlaltılarından istifadə edirlər. Yeni Fransanın, Almaniyanın şişman başları Ermənistanda olduğu kimi, Azərbaycanda da Rusiyaya qarşı ictimai narazılıq yaratmağa və bu narazılıqdan öz maraqları naminə istifadə etməyə ümid bəsləyirlər. Ə.Kərimli ona təqdim olunan tezisə əsasən sosial şəbəkə hesabında yazır: “Qarabağ uğrunda savaşda ordumuzun əldə etdiyi zəfərimizin tam olması üçün birgə səylərimizlə Rusiya ordusunun da gözəl Qarabağımızı tərk etməsinə nail olmalıyıq. Rusiya ordusu Azərbaycandan dərhal çıxarılmalıdır. Rusiya ordusu, əslində, Azərbaycana 3 il öncə qanunsuz olaraq gətirilib. İndi isə onların Azərbaycanda qalması üçün heç bəhanə də qalmayıb”.

Bu məxluqun anormal yanaşmasına görə, qələbəmiz rus sülhməramlıları Qarabağda qaldığı üçün yarımçıqdır. Niyə? Yəni, Ə.Kərimli Xankəndidə, Xocalıda, Ağdərədə, Şuşada, Xocavənddə və digər şəhər və qəsəbələrimizdə bayrağımızın ucaldığını, Laçın sərhəd keçid məntəqəsinin yaradıldığını görmürmü? Bəlkə keçmiş qaçqın və məcburi köçkünlərin “biz artıq qaçqın deyilik” uca səslə ifadə olunan fikirlərini eşitmir? İnsanlarımızın kütləvi şəkildə öz dədə-baba yurdlarına qayıtmalarından xəbərsizdir? Bütün bunları görməmək və ya eşitməmək üçün kar və kor olasan. Bildiyim qədər Ə.Kərimli qırmızı turp kimidir, başını Tofiq Yaqublunun başına vursa ikinci xəstəxanalıq olar. Deməli, ağılı və düşüncəsi, həm də sağlamlığı yerindədir. Sadəcə, xarici ağalarının göstərişləri, ona reallıqdan çıxış etməyə imkan vermir.

### Fuad Qəhrəmanlı da sədrinin anormal yerişini yeriyir

Hadisələrin inkişafına əsasən demək olar ki, tör-töküntüdən ibarət olan dağıdıcı müxaliflər arasında ictimai maraqlardan çıxış edən şəxs yoxdur. Gündüz vaxtı çıraqla da axtarsan tapmaq mümkün deyil. Çünki virus bütün düşərgəni əhatə edir. Ə.Kərimli nə desə, hansı addımı atsa digərləri də təkrarlayırlar. Fikir verin, Ə.Kərimli tutuquşu kimi rus sülhməramlıları barədə dönə-dönə təkrarladığı sözlərini ətrafında olan trollar da dilə gətirirlər. AXCP sədr müavini Fuad Qəhrəmanlı bir qədər də dərinə gedərək, iddia edir ki, Rusiya Qarabağı biz qaytarmaqla işini yekunlaşdırıb, artıq bölgədən getməlidirlər: “Bizim Rusiyadan ala biləcəyimiz tək şey Qarabağ idi, onu da alandan sonra daha ortada bir şey qalmayıb. Ona görə də bu gün ölkə olaraq Rusiyaya üz tutub Qərbə arxa çevirməklə dövlətin milli maraqlarına zidd seçim edirik. Nəticədə isə bir tərəfdən Avropanın böyük iqtisadi faydalarından məhrum oluruq, qlobal inkişaf prosesindən ayrı düşürük, o biri tərəfdən də, gələcəkdə Qərbin Rusiyaya ödətdirəcəyi fakturanın bir qismi də müttəfiq kimi bizim üzərimizə qoyulacaq”.

Bu məxluq nə danışdığını, nə yazdığını özü də yaqin ki bilmir. Erməni revanşistləri və digər erməniпərəst dairələr iddia edirlər ki, guya Rusiya və digər kənar qüvvələrin dəstəyi ilə Azərbaycan Qarabağı işğaldan azad edib. Eyni cəfəng fikirləri Ə.Kərimli və F.Qəhrəmanlı da söyləyir. Bilmək olmur Ə.Kərimli, F.Qəhrəmanlı erməni kökənlidir, yoxsa təmiz azərbaycanlı? Şübhəli məqamlar çox olsa da, reallıq ondan ibarətdir ki, torpaqlarımızı öz gücümüzə, şəhidlərimizin qanı, qazilərimizin canı, xalqımızın Yenilməz Sərkərdə, Prezident İlham Əliyevin ətrafında sıx birləşməklə aldıq. Əbədi olaraq da torpaq bütövlüyümüz mövcud olacaq. Dünya durduqca, insanlarımız Qarabağımızda yaşayacaq, yaradacaq, o bölgəni Prezidentimiz demişkən cənnətməkana çevirəcəklər.

Rus sülhməramlılarına gəlincə isə, onlar hansı işimizə mane olur ki? Ortada 10 noyabr razılaşması var və bu razılaşmanın tələbinə görə, rus sülhməramlı qüvvələri 2025-ci ildə bölgəni tərk edəcəklər. Daha doğrusu, artıq yır-yığış ediblər, texnikalarının və əsgəri qüvvələrinin böyük hissəsini Rusiyaya aparıblar. Nəzərdə tutulan zaman çərçivəsində digər kontingentdə ərazini tərk edəcəklər.

**_İ.ƏLİYEV_**

# “Təhsildən yayınma küçə uşaqlarının sayının artımını qaçılmaz edəcək”

**_“Şagirdlərin dərsdən yayınması təhsil təcrübəmizin müxtəlif illərində fərqli səviyyələrdə təzahür edib və bu kimi halların qarşısını almaq üçün müxtəlif formalarda mübarizə aparılıb. Sovet dönəmində mövcud təlimata əsasən rüb ərzində 40 saat dərs buraxan şagird proqram materialını mənimsəməmiş, biliyi isə qiymətləndirilməmiş hesab olunaraq, həmin şagirdin müvafiq olaraq payız imtahanına cəlb edilməsi və ya təkrar sinifdə saxlanılması barədə qərar çıxarılırdı._**



Məktəb kollektivi və valideyn icmaları arasında qarşılıqlı münasibətləri tənzimləyən əməkdaşlıq konsepsiyası hazırlanmalıdır. Bu qarşılıqlı münasibətlərin təşkil edilməsi və tənzimlənməsinin vahid sistemi yaradılmalıdır. Məktəb rəhbərlərinin pedaqoji kollektivlə valideyn resurslarından səmərəli istifadə etmə istiqamətində apardıqları işin effektivliyi artırılmalı müəllimlərin valideynlərlə apardığı iş gücləndirməli, valideynlərin məktəblə yanaşı valideynlərin və şagirdlərin məsuliyyətinin artırılması istiqamətində ciddi addımlar atılmalıdır. Əks təqdirdə, dərsdən yayınma təhsildən yayınmanı, təhsildən yayınma isə küçə uşaqlarının və erkən nikahların sayının artımını qaçılmaz edəcək”.



Türkiyə təhsil sistemində tətbiq olunan qaydalara əsasən il ərzində 29 gün dərs buraxılması üzrlü sayılır, 30-cu günə keçdikdə artıq bu şagirdin ziyanına hesablanır və o, təkrar sinifdə saxlanır”. Bu sözləri SİA-ya açıqlamasında təhsil eksperti Nadir İsrafilov deyib.

Onun sözlərinə görə, 2015-ci ildə vəziyyətdən çıxış yolu kimi Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu ilə İctimai birliklər və dini qurumlar komitələrinin birgə iclasında İnzibati Xətalar Məcəllənsinə edilən yeni dəyişikliklər layihəsi müzakirəyə çıxarılarkən bu məsələ bir daha gündəmə gətirildi: “Nəzərdə tutulan dəyişikliyə görə, müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi səbəblər istisna olmaqla, dünyəvi icbari ümumi orta təhsil üzrə dərs gününün şagird tərəfindən 1 ay ərzində 7 gündən çox buraxılmasına görə 100 manat miqdarında cərimə tətbiq edilir. Qaldırılan məsələ təhsil cəmiyyətində birmənalı qarşılanmadı.

Məsələnin həlli düşündüyümüz qədər də sadə və asan olmasa da, bununla belə hər şeydən əvvəl dərsdən yayınmanın səbəbləri hərtərəfli araşdırılmalı, geniş müzakirə olunmalı, yaranan vəziyyətdən çıxış yolu kimi ilk növbədə daxili nizam-intizam qaydalarının gücləndirilməsi üzrə

Nadir İsrafilov sözlərinə belə davam edib: “Səbəb kimi nəyi görürəm. Elmi-texniki tərəqqi, yüksək texnologiyaların insani münasibətlərin önünə keçməsi əsas bilik ötürücüsü kimi məktəb, müəllim faktorunu böyük ölçüdə arxa plana keçirib. Başqa sözlə ifadə etsək, müəllim məktəbdən, şagird müəllimdən uzaq düşüb. Korporativ maraqların əksinə olaraq məktəb mühitinin deformasiyaya uğramasının qarşısı alınmalı, müəllim və şagird məktəbə qaytarılmalıdır.

təb həyatına cəlb olunması mexanizmi, onların təhsilin imkişafında iştirakı, məktəbə dəstək imkanlarını müəyyənləşdirən konsepsiya ortalığa qoyulmalıdır. Şagirdlərin internetdən asılılığını məhdudlaşdırmaq istiqamətində iş aparılmalıdır. Məktəblərimizin repetitor və hazırlıq kurslarının aləvəsinə çevrilməsinə, qeyri-rəsmi fəaliyyət növünün rəsmi fəaliyyət növünü üstələməsinə yol verilməməsi üçün müvafiq addımlar atılmalıdır. Nə qədər ki, rəsmi fəaliyyət sahiblərinin görməli olduğu işi qeyri-rəsmi fəaliyyətlə məşğul olanlar görəcək, Nə qədər ki, dərs deməyə müəllimin, dərs dinləməyə şagirdin həvəsi olmayacaq, dərsdən yayınmalar da bir o qədər qaçılmaz olacaq...”.

**_Ayşən Vəli_**





Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.*



# Həyata bir addım geridən başlayanlar

***Sağlam həyatın təməli sağlam hamiləlikdən, sonra vaxtında və sağlam doğuşla başlayır. Halbuki dünyada və ölkəmizdə bir çox körpələr vaxtından əvvəl, hamiləlik prosesi başa çatmamış, gözlənilən vaxtdan əvvəl doğulur. Normal hamiləliyin müddəti 40 həftədir. Körpə 37 həftədən əvvəl doğulubsa, bu, vaxtından əvvəl doğulmuş körpə sayılır. Doğuş nə qədər tez olarsa, sağlamlıq riskləri bir o qədər çox olar. Ən yüksək risk 28 həftədən əvvəl doğulmuş körpələrdə, orta risk isə 28-31 həftə arasında doğulmuş doğulmuş körpələrdə baş verir. Ən aşağı risk 32-36 həftə arasında doğulmuş doğulmuş körpələrdədir.***

Ümumilikdə, hamiləliyin otuz yeddinci həftəsini tamamlamadan doğulan körpələrə vaxtından əvvəl doğulmuş körpələr deyilir. Dünyada təxminən hər on körpədən biri vaxtından əvvəl doğulur. Bu körpələr ana bətnində böyümə və inkişafını tamamlamadan dünyaya gəldiyi üçün tənəffüs sistemi, ürək-damar sistemi, bağırsaq və sinir sistemi ilə bağlı problemlərlə üzləşirlər. Erkən doğulan körpələrin immun sistemi tam inkişaf etmədiyi üçün mikroblara qarşı müqaviməti aşağı olur. Buna görə də onların baxımı böyük məsuliyyət tələb edir.

### Daha az təmas, daha çox diqqət

Xüsusilə 32 həftədən əvvəl doğulmuş və çəkisi 1500 qramdan az olan körpələrin baxımında daha yaxşı təchiz olunmuş neonatal reanimasiya şöbələrinə, neonatal mütəxəssis həkimlərə və təcrübəli tibb bacılarına və səhiyyə işçilərinə ehtiyac var. Məqsəd təkcə bu körpələrin sağ qalması deyil, həm də gələcəkdə sağlam, yüksək həyat keyfiyyətinə malik fərdlərə çevrilməsidir. Bu isə erkən doğulan körpələrə göstərilən tibbi xidmətin keyfiyyəti ilə sıx bağlıdır.

Vaxtından əvvəl körpəyə qulluq prosesində ən keyfiyyətli qayğı, körpəyə daha az toxunmaq və daha çox müşahidə etməkdir. Neonatal reanimasiya prosesində vaxtından əvvəl doğulan körpəyə qulluqda ailələrin fəal iştirakının təmin edilməsi mühüm keyfiyyət meyarı hesab edilir. Körpə ana bətnində olduğu kimi erkən doğuşla dünyaya gəldikdən sonra ana və atasının təmasını, enerjisini hiss etməlidir.

Vaxtından əvvəl doğulan körpələrlə bağlı problemlərə diqqət çəkmək və maarifləndirməni davam etdirmək məqsədilə hər il noyabrın 17-si "Ümumdünya vaxtından əvvəl doğulan uşaqlar günü" kimi qeyd olunur. Bənövşəyi rəng ilə simvolizə edilən bu günə dair insanları maarifləndirmək üçün müxtəlif tədbirlər təşkil edilir və sosial maarifləndirmə işləri aparılır.



### Körpələr niyə erkən doğulur?

Erkən doğulmanın səbəbləri araşdırıldığında bunların əhəmiyyətli bir hissəsinin yüksək riskli hamiləliklərdən qaynaqlandığı müşahidə edilir. Bundan əlavə, zəif və ya düzgün olmayan qidalanma, erkən yaşda hamiləlik, aramsız doğuşlar, hamiləliyə lazımi qayğı və diqqət göstərilməməsi, ekoloji faktorlar, stress və narahat həyat tərzi kimi səbəblərdən də vaxtından əvvəl körpə dünyaya gətirmə riski artır.



Prenatal baxımın keyfiyyəti və kəmiyyəti böyük əhəmiyyət kəsb edir. Riskli hamiləliklərin düzgün təqibi, fövqəladə hallarda lazımi müdaxilələr, yeni doğulmuş dövrdən başlayaraq körpələrin inkişafının yaxından izlənilməsi bir çox ana və körpənin həyatını xilas edir. Vaxtından əvvəl doğulanlara peşəkar qulluğu yaxşılaşdırmaq üçün təlim keçmiş tibbi personalı artırmaq və neonatal reanimasiya şöbələrini gücləndirmək şərtdir.

Vaxtından əvvəl doğuş ara verilməyən hamiləliklərdə də baş verir. Körpələrin sayı artdıqca hamiləlik müddəti qısalır. Əkiz döllərdə hamiləlik müddəti 35 həftə olanda doğum normadan 2 dəfə, 33 həftəlikdə 3 dəfə, 29 həftəlikdə isə normaldan 4 dəfə çox olur. Vaxtından əvvəl doğuşun bir səbəbi də doğum kanalının genişlənməsidir.

### Hər il 15 milyon!

Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, ölkələrdə vaxtından əvvəl doğuş nisbətləri 5-18% arasında dəyişir. ÜST məlumatlarına görə, dünyada hər il 15 milyon körpə vaxtından əvvəl doğulur və bu doğuşlardan 1 milyondan çox körpə bir yaşına çatmadan ölür. Prenatal doğulan körpələr, orqan və toxumaları yetərincə inkişaf etməmiş doğulduğu üçün normal vaxtında doğulan körpələrə nisbətən öyrənmə və davranış pozğunluqları, serebral iflic, qavrama qüsurları, infeksiyalar və xroniki xəstəliklər baxımından daha yüksək risklərə məruz qalırlar.

Hamiləliyi planlaşdırdığınız zaman və bütün hamiləliyiniz boyu ailə həkiminiz və ya mama-ginekoloqunuzda mütəmadi olaraq müayinədən keçin. Həkiminizə sağlamlıq tarixçəniz haqqında dəqiq və tam məlumat verin. Hamiləliyi planlaşdırarkən və ya hamilə olduğunuzu anladıqdan sonra sağlam qidalanmağa çalışın, stress və həyacandan uzaq olun. Sizin üçün təyin olunmamış heç bir dərmandan istifadə etməyin. Sizin və körpənizin sağlamlığını qorumaq üçün qəbul etdiyiniz bütün dərmanlar barədə həkiminizlə danışın.

### Zorakı doğmayın, doğuzdurmayın!

Hamiləliyiniz boyu lazımi miqdarda kökəlin, qidalanma zamanı kökəlməmək üçün pəhriz etməyin, sağlam hamiləlikdə normal çəki artımı vacibdir. Amma bu, o demək deyil ki, piylənmə səviyyəsində kökəlin. Adekvat və balanslı qidalanmaya diqqət yetirin. Ağır işlərdən və ağır yüklərdən çəkinin. Uzun müddət oturmayın və yaxud uzun müddət ayaqüstə qalmayın. Həyatınızdakı stressi mümkün qədər azaldın. Fiziki aktivlik, adekvat və balanslı qidalanma, nəfəs alma texnikası kimi üsullar stresslə mübarizənizdə faydalı olacaq.

Vaxtından əvvəl doğuş riskiniz varsa, əvvəllər belə hamiləlik yaşamısınızsa və yenidən hamilə qalmağı planlaşdırırsınızsa, mütləq həkimlə məsləhətləşdikdən sonra hamilə qalın. Gələcək anada bəzi xroniki xəstəliklər düzgün müalicə edilmədikdə vaxtından əvvəl doğuşa səbəb ola bilər. Hamiləlikdən əvvəl və hamiləlik dövründə bu xəstəliklər üçün mütəmadi olaraq müayinədən keçin və müalicələrinizi doğru edin.

Hər hansı bir səbəbdən doğuşunuzu tezləşdirməyin. Bəzən "zerkalni" doğum tarixi sevdası valideynləri vaxtından əvvəl doğuşa meyllendirir, keysəriyyə yolu ilə körpəni erkən doğulmağa məcbur edirlər. Təəssüf ki, buna alət olan həkimlər də az deyil, klinikalar isə prenatal körpələrin baxımı üçün külli miqdarda qazanc əldə etdiyi üçün həkimlərə belə bir imkan yaradır.

Vaxtından əvvəl doğulmuş körpələr normal inkişaf prosesi keçərsə məhsuldar və sağlam həyat sürmək qabiliyyətinə malikdirlər, lakin öz başlarına bu qabiliyyəti aktivləşdirmək imkanları yoxdur. Bu prosesdə ailələrin, səhiyyə işçilərinin üzərinə böyük məsuliyyət düşür.

ARAŞDIRMA

*Lalə Mehralı*

SƏS
17 noyabr 2023-cü il

# Şəhərin mərkəzində olan evlər ucuzlaşıb?

*“2023-cü il Azərbaycanda əmlak bazarı bir çox yenilikləri ilə yaddaşlarda qaldı. Bu yeniliklərdən sənədsiz evlərə qeydiyyatın olunmaması və kommunal çıxışlarının qadağan olunması kimi yeniliklərlə xatırlanacaq”. Bu sözləri SİA-ya açıqlamasında daşınmaz əmlak üzrə ekspert Anar Nəsirov deyib. Anar Nəsirov sözlərinə belə davam edib: “Bundan başqa 2023-cü il qiymətlərin artması və kirayə mənzillərə tələbatın artımı kimi xatırlanır.*



**ƏMLAK EKSPERTİ AÇIQLADI**

Bu il başqa illərlə müqayisədə yay aylarında daha çox mənzillərin alqı-satqısının baş tutduğunu müşahidə etdim. Belə ki, ipoteka şərtlərinin yumşaldılması və daha əlçatan olması Azərbaycan əmlak bazarına xüsusi ilə paytaxt Bakı şəhərinə və ətraf qəsəbələrə daha çox təsiri oldu. Alqı-satqısı baş tutduğu razılaşmaların 75%-i Bakı şəhəri və ətraf qəsəbələrin payına düşür. Bu baxımdan daha çox tələbat Bakı şəhərinə olduğu üçün qiymətlərdə artım qeydə alındı.

2023 cü il ən bahalı mənzillər Nəsimi, Səbail və Nərimanov ərazilərində qeydə alındı. Əgər hazırki qiymətlərə nəzər salsaq görərik ki, adlarını qeyd etdiyim rayonlarda yeni tikilmiş binalarda təmirsiz “podmayak”mənzillərin 1 kvadrat metri 2100-2500 AZN arasında yerləşdiyi yerə görə dəyişir.

Sovetlər dövründə isə tikilən köhnə bina evləri layihəsinə, mərtəbəsinə və yerləşdiyi əraziyə görə dəyişir. Belə ki, şəhərin mərkəzi hissələrində 1 otaqlı xruşofqa layihəli evin qiyməti 95000 AZN-dən başlayaraq daha yuxarılara doğru təklif edilir. 2 otaqlı xruşofqa layihəli mənzillər isə 135000 AZN-dan başlayan qiymətlərlə təklif edilir və layihəsinə görə qiymətlər daha yuxarı təklif edilir.

Yeni tikilən binaların satışı kvadrat metrlə hesablansa da köhnə binaların satışı otaq hesabına və mənzilin layihəsinə görə təyin edilir. Belə ki, hər layihənin öz qiyməti var və köhnə bina evlərində ən bahalı layihə arxitekturnu və stalinkadır. Bundan sonra isə leninqrad və eksprimentalnı layihələrdə tikilmiş binalardır. Düzdür qiymət təyin edilərək əsas kimi mənzilin yerləşdiyi yer nəzərə alınır ancaq eyni yerdə yerləşən bu mənzillərin qiymətləri təyin olunarkən əsas kimi layihəsi və yerləşdiyi mərtəbəsi götürülür. Bu il daha çox qiymət artımı və çox tələbat olan yerlər şəhərin mərkəzi hissələri oldu. Buna misal kimi Nəsimi, Nərimanov və Səbail rayonlarının mərkəzi hissələrini qeyd etmək olar.

Tələbat ipotekaya yararlı mənzillər oldu. Bu il dəyəri 300 000 AZN qədər olan və ipotekaya yararlı və sənədi çıxarış olan mənzillərə daha çox tələbat oldu. Belə ki, bu tipli mənzillərin qiymətlərində daha çox artım qeydə alındı. İstər sovetlər dövründə istərsə də yeni tikilən binalarda bu il ipotekaya yararlı mənzillərin alqı- satqısında və qiymətlərin artımı daha çox qeydə alındı. Bu qiymət artımı təkcə Bakı şəhərinin mərkəzi hissələrində yox ətraf qəsəbələrə və şəhərin kənar hissələrində də qeydə alındı. Amma mərkəzi hissələrə baxım daha az oldu.

Qiymətlərin belə artması aşağı təbəqəli alıcıları daha çox şəhərin kənar hissələrində əmlak almağa məcbur etdi. Buna görə şəhərdə ev almağa imkanı olmayan alıcılar daha çox Xırdalan, Masazır, Hövsan və Binəqədinin kənar hissələrinə üz tutdular. Bu baxımdan bu yerlərdə də bu il üçün alqı-satqı və əmlak bazarı daha yaxşı oldu. Belə ki, şəhərin mərkəzində əmlakını satmış müştəri 2 ev almaq, və yaxud biraz pul saxlayıb qalanını özünə ev almaq üçün məcburi qaydada bu yerlərdə ev almaq üçün yönəldilər.

Bir mütəxəssis kimi bunu qeyd edə bilərəm ki, 2023 ci il Azərbaycan əmlak bazarı üçün pis il olmadı və keçmiş illərlə müqayisədə daha çox adam mənzil sahibi oldu.Buna əsas səbəb kimi ipoteka ilə mənzil alanların sayında ciddi artımın olmasıdır. Şəhərin kənar hissələrində istənilən alıcı üçün mənzillər təklif olunmaqdadır. Belə ki, dəyəri 30000 AZN-dən başlayan gettikcə yuxarı qalxan həyət evləri var. Bu qiymətlərə həyət evlərinin olması aşağı gəliri olan alıcıların maraqlarına səbəb olur və onlar elə evlərə sahib olmaq üçün yuxarıda qeyd ettiyim yerlərə mənzil almaq üçün üz tuturlar.

Ümumilikdə götürsək yeni bina evləri və sovetlər dövrüdə tikilmiş binalarda həmin ərazilərdə şəhərə nisbətən çox ucuzdur. şəhərdə bir mənzil aldığın pula həmin yerlərdə 2 mənzil sahibi olmaq olar. Ona görə az gəlirli alıcılar daha çox Xırdalan, Masazır, Hövsan və Binəqədi kənar hissələrinə üz tutur.

Oktyabr ayının 1- dən qüvvəyə minən yeni qərarla çıxarışı olmayan evlərə komunalların verilməməsi, həmin ucuz mənzil bazarına da təsir edəcək və həmin ucuz evlərin də qiymətlərinin qalxmasına səbəb olacaq. Belə ki, su, qaz, işığı olan həyət evləri əvvələr çıxarışsız evlərdən çox ucuz idisə, indi həmin həyət evləri də çıxarışlı mənzillərlə eyni qiymətə təklif ediləcək. Çünki həmin mənzillərdə komunal xidmətlər var. Yəni əlavə çətinliklər olmayacaq. Bu ucuz evlərin qiymətlərində həmdə ona görə artım olacaq ki, yeni evlər bazara çıxmayacaq çünki sənədsiz ev tikmək və ona kommunal xidmətlərə qoşulmaq olmayacaq. Bu da öz növbəsində tələbatın və qiymətlərin artmasına səbəb olacaq”.

*Ayşən Vəli*

## ELAN

**“Stil -Tikinti” MTK tərəfindən Tağıyev İlqar Rüstəm oğluna Xudu Məmmədov 2942 məhəllə, bina 2, mənzil 40 ünvanına verilmiş mənzilin müqaviləsi itdiyi üçün etibarsız sayılır.**


## “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# İnsan ürəyinin quruluşunun 60 illik sirri açılıb

İnsan ürəyinin quruluşunun 60 illik sirri açılıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, alimlər bu orqanın mühüm hissəsinin molekulyar xəritəsini tərtib ediblər. Qeyd edək ki, bu xarici Kentukki və Massaçusets Universiteti Çan Tibb Məktəbinin (ABŞ) əməkdaşlarının apardığı araşdırmanın nəticələridir.

Ürək milyardlarla hüceyrədən ibarətdir və hər birində əsas əzələ vahidləri olan sarkomerlər var. Bu sarkomerlərin tərkibində ürək əzələsinin fəaliyyəti üçün vacib olan miyozin filamentləri mövcuddur. Bu zəncirlərin hər birində elm adamlarının onilliklər boyu anlamağa çalışdıqları kompleks bir quruluşda düzülmüş təxminən 2000 molekul var. Komanda ürəyin qalın filamentlərini vizuallaşdırmaq üçün tək hissəcikli 3D rekonstruksiyadan istifadə edərək, ürəyin strukturu və funksiyası haqqında yeni anlayışlar təmin edib.

Araşdırmada Kempbellin rəhbərlik etdiyi Gill Cardiovascular Biorepository-dən ürək nümunələrindən istifadə edilib. 2008-ci ildə yarandığı gündən bəri anbar 500-ə yaxın şəxsdən təxminən 15.000 nümunə toplayıb.



Bu nümunələr təkcə Campbell's kimi tədqiqatlarda əsas rol oynamır, həm də birgə elmi tərəqqiyə kömək etməklə, bütün dünyada tədqiqat qruplarına təqdim edilir. Kəşf struktur, fizioloji və klinik tədqiqatlar üçün yeni əsas yaradır. O, həmçinin ürək əzələsinə əvvəlcədən düşünüldüyündən daha dəqiq nəzarət imkanını nümayiş etdirir.

# 10 milyonlik təklifi rədd etdi: “hər şey pul demək deyil”

***Türkiyəli aktrisa Nebahat Çehre inşaat şirkətindən gələn reklam təklifindən imtina edib. Türkiyə mətbuatının yazdığına görə, müqavilə əsasında 10 milyon lirə və mənzil təklif olunsada, aktrisa qəbul etməyib.***



Çehre "Sonuncu zəlzələdə yüzlərlə ev minlərlə insana məzar oldu. Birdən mən reklamını etdiyim evlər də yerlə bir olsa... Məyus olaram, hər şey pul demək deyil" deyə, bildirib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur

**Tiraj: 4000**